

Milli azadlıqdan
şirin nemət yoxdur!

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

20 iyul
2024-cü il,
şənbə
№ 128 (6714)
Qiymәti
60 qəpik

# Regional lider, etibarlı tərəfdaş...

## Beynəlxalq aləm Azərbaycanın strateji baxışları ilə hesablaşır




Bax səh. 2

## Danışıqlardan yayınmaq Ermənistanın iflasını reallaşdıra bilər

Bax səh. 2

## Fransa müstəmləkəçiliyinə qarşı vahid platforma

Hazırda Fransanın ağır kolonialist siyasətindən əziyyət çəkən ölkələrdə müstəmləkəçiliyə qarşı mübarizənin yeni mərhələsi başlayıb. Bu mərhələ özünün mütəşəkkilliyi və əsarətə qarşı ayağa qalxan xalqların qəti mövqe sərgiləmələri ilə səciyyələnir. Aparılan mübarizənin məntiqi nəticəsi olaraq getdikcə daha çox ölkədə Fransanın mövcudluğuna son qoyulur.

Əlamətdar haldır ki, son vaxtlarda paytaxtımız müstəmləkəçiliyə qarşı mübarizə fəaliyyətlərinin və dekolonizasiya proseslərinin mərkəzinə çevrilib. Azadlıq istəyən xalqlar Fransanın talançılıq və istismar siyasətinə etirazlarını beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq üçün Bakını ideal məkan hesab edirlər.

Fransanın müstəmləkəçilik zülmündən qurtulmaq istəyən xalqların nümayəndələri bu günlərdə həmrəyliyin genişləndirilməsi istiqamətində daha bir qətiyyətli addım atıblar. Xəbər verildiyi kimi, Qvadelupanın Azadlığı naminə Xalq Birliyinin təşkilatçılığı və Bakı Təşəbbüs Qrupunun dəstəyi ilə Fransa müstəmləkəçiliyindən əziyyət çəkən Korsika, Melaneziya, Polineziya, Karib və Antil adalar qrupundan olan 20-yə yaxın siyasi partiya və müstəqillik hərəkatlarının rəhbər şəxslərinin iştirakı ilə iyulun 17-18-də Bakıda birinci Qurultay keçirilib. Qurultayın keçirilməsi ideyası Fransanın dənizaşırı ərazilərinin müstəqillik uğrunda mübarizə aparan siyasi partiya və hərəkatlarına məxsusdur. Niderland koloniyaları olan Bonayre və Sən-Martin adalarından 3 təşkilat...

Bax səh. 3

## Dünya Bankı ölkəmizin biznes mühitini qiymətləndirəcək




Bax səh. 3




Bax səh. 4

## 149 yaşlı Azərbaycan mediası...

## Azərbaycanın xarici borcu azalıb

Bax səh. 3

## MƏTBUAT TARİXİMİZDƏ “SOVET ERMƏNİSTANI” QƏZETİ

Bax səh. 5

## Ursula Fon der Lyayen ikinci dəfə AK prezidenti oldu

Bax səh. 7

## II Şuşa Qlobal Media Forumu keçiriləcək

İyulun 20-22-də “Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə” mövzusunda II Şuşa Qlobal Media Forumu keçiriləcək. AZƏRTAC xəbər verir ki, müasir informasiya mühitində dezinformasiyanın sürətlə yayılması inkişaf və qlobal sabitlik üçün ən əsas təhdidlərdən biri hesab edilə bilər. Texnologiyanın hər bir sahə üçün yaratdığı bir çox imkanlarla yanaşı, məlumat həcminin və kanallarının artması həm düzgün məlumatlandırma sistemlərinin formalaşdırılması, həm də istehlakçıların etibarlı məlumatı müəyyən etməsi ilə bağlı yeni yanaşma, alət və mexanizmləri gündəmə gətirir.

Forum çərçivəsində “Təsirin qiymətləndirilməsi: Dezinformasiyanın əhatə dairəsini müəyyənləşdirmək”, “Dezinformasiyaya qarşı daha davamlı cəmiyyət qurmaq üçün siyasət və təşəbbüslər”, “Süni intellektin reallığa, mediaya və dezinformasiyaya təsiri: Media savadlılığının təşviqi” və “İqlim hərəkatı və media” mövzularında dörd panel sessiya təşkil olunacaq. Panel sessiyalarda müxtəlif ölkələrdən olan rəsmilər, media və vətəndaş cəmiyyəti, dövlət və biznes nümayəndələri, beynəlxalq təşkilatların təmsilçiləri və media ekspertləri ətraflı fikir və təcrübə mübadiləsi aparacaqlar.

Bununla yanaşı, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə əlaqədar həyata keçirilən tədbirlər və hazırlıq işləri, ölkə səviyyəsində iqlim dəyişikliyinin təsirləri ilə aparılan mübarizə, azad edilmiş ərazilərdə bərpa və yenidənqurma prosesində sərgilənən dayanıqlı yanaşma barədə məlumat veriləcək.

Qeyd edək ki, 50-ə yaxın ölkədən 150-dən çox xarici qonağın, o cümlədən 30-a yaxın ölkənin informasiya agentliyi, 3 beynəlxalq təşkilat və 82 media qurumunun qatılacağı Forum iştirakçılar üçün birgə müzakirə və hərəkət platforması rolunu oynayacaq.

Xatırladaq ki, I Şuşa Qlobal Media Forumu ötən il iyulun 21-23-də keçirilib. “4-cü Sənaye inqilabı dövründə yeni media” mövzusunda I Media Forumunun açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iştirak edib. Dövlətimizin başçısı açılış mərasimində çıxış edib və sualları cavablandırıb.

## Makronun yalanı...



Bax səh. 6

# Regional lider, etibarlı tərəfdaş...

## Beynəlxalq aləm Azərbaycanın strateji baxışları ilə hesablaşır

**Müstəqil Azərbaycan milli maraqlar üzərində qurulan çoxvektorlu xarici siyasət kursuna malikdir. Respublikamız həm xoş mərama əsaslanan qonşuluq siyasəti həyata keçirməklə regional platformalarda əməkdaşlığın genişləndirilməsinə nail olmağa çalışır, həm də paralel şəkildə Avropa İttifaqına (Aİ) və geniş İslam dünyasına aid olan dövlətlərlə siyasi dialoqu daha yüksək səviyyəyə qaldırmağa, iqtisadi tərəfdaşlığı genişləndirməyə çalışır. Xüsusilə də postmünaqişə dövründə Azərbaycan daha qlobal xarici siyasət həyata keçirir.**

### London səfəri: Azərbaycanın uğurlu xarici siyasət kursunun növbəti təsdiqi

İqtisadi cəhətdən heç kimdən asılı olmayan Azərbaycan özünün güclü potensialına əsaslanmaqla siyasi müstəqilliyini  də qorumağı bacarır. Respublikamız xarici əlaqələrini, siyasi, iqtisadi, hərbi, humanitar və digər sahələrdə müttəfiqlərini, əməkdaşlıq etdiyi ölkə və beynəlxalq təşkilatları özü seçir. Ölkəmizin xarici siyasət kursu aktiv olmaqla yanaşı, sırf müstəqillik və suverenlik prinsiplərinə əsaslanır. Xoş mərama və qarşılıqlı maraqlara əsaslanan multiregional xarici siyasət kursu ölkəmizə beynəlxalq münasibətlər sistemində yüksək nüfuz qazandırıb.

Azərbaycanın xarici siyasət kursunun səmərəliliyinin təmin olunmasında şəxsən Prezident İlham Əliyevin fəal diplomatik səyləri və qlobal miqyasda liderlik keyfiyyətləri nümayiş etdirməsi mühüm rol oynayır. Xəbər verildiyi kimi, Prezident İlham Əliyev bu günlərdə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Kir Starmerin dəvəti ilə "Avropa Siyasi Birliyi" 4-cü Zirvə toplantısında iştirak etmək üçün İngiltərəyə işgüzar səfərə gedib. Dövlətimizin başçısının Londona baş tutan səfəri Azərbaycanın uğurlu xarici siyasət kursuna malik olduğunu bir daha təsdiqləyir. Səfər çərçivəsində dövlətimizin başçısı Oksfordda Almaniyanın, İsveçrənin, Çexiyanın, Litvanın, Macarıstanın, Finlandiyanın və digər ölkələrin dövlət və hökumət rəhbərləri ilə görüşlərə qatılaraq aktual müzakirələr aparıb. Diqqəti çəkən mühüm məqamlardan biri ondan ibarətdir ki, bu görüşlərin baş tutmasına təşəbbüslər əksər hallarda qarşı tərəfdən gəlib. Buradan da aydın şəkildə görünür ki, Avropa dövlətlərinin liderləri Azərbaycanın dövlət başçısının strateji baxışlarına böyük önəm verir və Onunla müxtəlif məsələlər ətrafında müzakirələr aparmağa ehtiyac duyurlar.






### Astana görüşləri: Regional əməkdaşlıq müstəvisi genişlənir

Ümumiyyətlə, iyul ayının əvvəlindən Prezident İlham Əliyevin iş cədvəli xarici səfərlərlə zəngin olub. İyulun 3-də Prezident İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) sədri statusunda Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə ŞƏT-in Zirvə toplantısında iştirak etmək üçün Astanaya səfər edib. Qeyd edək ki, bu, Prezident İlham Əliyevin Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında ikinci iştirakıdır. Bundan əvvəl Şanxay Əməkdaşlıq Təşkilatının sədri statusunda Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin dəvəti ilə dövlətimizin başçısı təşkilatın 2022-ci il sentyabrın 16-da Özbəkistanın Səmərqənd şəhərində keçirilmiş Zirvə toplantısında iştirak edib.

Dövlətimizin başçısı ŞƏT-in Astana Zirvə tədbiri çərçivəsində "ŞƏT plyus" formatında keçirilən görüşdə iştirak edib, Rusiyanın, Çinin lideri və digər rəsmi şəxslərlə görüşlərə qatılıb.  Astanada Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif arasında üçtərəfli görüş keçirilməsi xüsusi önəm daşıyır. Bu ona dəlalət edir ki, Azərbaycan-Türkiyə-Pakistan formatında əməkdaşlıq getdikcə daha da möhkəmlənir. Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində iyulun 3-də "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" imzalandı. Bu, tarixi bir sənəddir. İmzalanan birgə Bəyannamədə iki ölkə arasında perspektiv əməkdaşlığı hədəfləyən çoxsaylı müddəalar yer alıb.

Prezident İlham Əliyevin ŞƏT-in bundan əvvəl Özbəkistanda, indi isə Qazaxıstanda baş tutan Zirvə tədbirlərinə dəvət alması, eyni zamanda, Azərbaycanla Mərkəzi Asiyada yerləşən Türkdilli ölkələrlə sıx əməkdaşlıq əlaqələri, yüksəksəviyyəli siyasi dialoq qurmasının əyani təsdiqidir. Azərbaycan və Mərkəzi Asiya dövlətlərini Orta Dəhlizdə ortaq maraqlar birləşdirir.

### Beynəlxalq fəallıq: İnamlı əməkdaşlıq, müxtəlif platformalarda aktiv iştirakçılıq

Azərbaycanın çoxvektorlu xarici siyasət kursunun ən mühüm istiqamətlərindən birini beynəlxalq təşkilatlarla fəal əməkdaşlıq təşkil edir. Respublikamızın ayrı-ayrı nüfuzlu beynəlxalq təşkilatlarda, o cümlədən də Birləşmiş Millətlər Təşkilatında (BMT) yüksək fəallığı diqqət çəkir. Qısa müstəqillik tarixinə malik olan Azərbaycanın 2011-ci il oktyabrın 24-də BMT Baş Assambleyasının plenar iclasında gizli səsvermənin nəticələrinə əsasən 2012-2013-cü illərdə Şərqi Avropa bölgəsini qurumun Təhlükəsizlik Şurasında təmsil edəcək qeyri-daimi (müvəqqəti) üzv seçilməsini diplomatiyamızın BMT zirvəsi kimi səciyyələndirə bilərik. Ölkəmizin BMT TŞ-yə hər iki sədrliyi müddətində qurumun 59 açıq və qapalı iclası keçirilib, 7 qətnamə, Şura sədrinin 3 bəyanatı və 13 mətbuat bəyanatı qəbul edilib.

Azərbaycanın Qoşulmama Hərəkatının (QH) prinsiplərinə sadiqlik nümayiş etdirməsi, daim onun ideyalarının təşviqinə çalışması, ehtiyac yarandığı təqdirdə ayrı-ayrı üzv dövlətləri dəstəkləməsi, qurumun fəaliyyətinə digər sanballı töhfələr verməsi QH-də ölkəmizə böyük etimad və nüfuz qazandırıb. Bunun nəticəsidir ki, Hərəkata üzv ölkələrin 2016-cı ildə Venesuelada keçirilmiş Zirvə görüşündə quruma 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsi barədə yekdil qərar qəbul edilib. Qoşulmama Hərəkatı dövlət və hökumət başçılarının 25-26 oktyabr 2019-cu il tarixlərində Bakıda keçirilmiş 18-ci Zirvə Görüşündə quruma sədrlik Azərbaycana həvalə olunub. Eyni zamanda, Qoşulmama Hərəkatına üzv dövlətlər quruma sədrliyi 2022-ci ildə bitməli olan Azərbaycana Hərəkata əlavə bir il də sədrlik etmək barədə müraciət ünvanlayıblar və bu müaciət respublikamız tərəfindən müsbət dəyərləndirilib. Respublikamızın QH-da sədrliyi kifayət qədər uğurlu oldu və qurumun funksionallığı əhəmiyyətli dərəcədə artdı. Eyni zamanda, Prezident İlham Əliyevin təşəbbüsləri əsasında qurumun yeni təsisatları, gənclər və qadın qolları formalaşdı.

Hazırda Azərbaycanın Türk Dövlətləri Təşkilatında (TDT) iştirakı yüksək səviyyədədir. Respublikamızın TDT-na sədrliyi qlobal pandemiya dövrünə təsadüf etdi və bu səbəbdən də ölkəmiz öz gündəliyini qlobal təhdidə qarşı beynəlxalq həmrəyliyin gücləndilməsinə istiqamətləndirdi. Yeri gəlmişkən, bir neçə gün bundan əvvəl Şuşada TDT-nin qeyri-formal görüşü baş tutdu. Qeyri-formal Şuşa Zirvə görüşü üçün aktual gündəik müəyyənləşdirilib. Tədbirin əsas mövzularından biri nəqliyyat və kommunikasiyalarla bağlı olub. Deyə bilərik ki, bu məsələ bütün Türk dünyası, o cümlədən də Mərkəzi Asiya dövlətləri üçün çox mühüm çağırışlar sırasında yer alır. Şuşa qeyri-formal Zirvə görüşünün gündəliyinin ikinci əsas məsələsi iqlim çağırışlarını əhatə edirdi. Bu da müasir dünya üçün həyati əhəmiyyətli məsələdir.



### COP29-a hazırlıq: Yaşıl, inklüziv və dayanıqlı dünya naminə həmrəylik

Hazırda Azərbaycan cari ilin noyabrında ev sahibliyi edəcəyi COP29 iqlim konfransına məsuliyyətli hazırlıq həyata keçirir. Ötən ilin sonlarında COP29-a ev sahibliyi hüququnun Azərbaycana verilməsi beynəlxalq səviyyədə ölkəmizə olan güclü etimadın göstəricisidir. Respublikamız bunu böyük məsuliyyət kimi qəbul edib. Ölkəmizin niyyətini diqqətə çatdıran Prezident İlham Əliyev bildirib ki, Azərbaycan COP29-a var gücü ilə hazırlaşır, yaşıl, ədalətli, inklüziv və dayanıqlı dünya naminə həmrəyliyi gücləndirmək, planetimizin gələcəyi üçün müsbət nəticələr əldə etmək üçün səylərini əsirgəmir.

COP29 üçün müəyyənləşdirilən gündəlik kifayət qədər ciddidir. Bildirildiyi kimi, Bakıda təşkil ediləcək COP29-da 2025-ci ildən sonrakı dövr üçün iqlim maliyyəsi üzrə yeni kollektiv kəmiyyət hədəfinin razılaşdırılması üzrə danışıqlar aparılacaq. İqlim dəyişmələri ilə bağlı inkişaf etməkdə olan ölkələrin artan maliyyə ehtiyaclarını ödəmək məqsədilə yeni kollektiv kəmiyyət hədəfinin razılaşdırılması hamımızın qarşısında duran ümdə vəzifə, ortaq gələcəyimizə sərmayə, müasir və gələcək nəsillər qarşısında kollektiv məsuliyyətimizdir. Azərbaycan bu danışıqların şəffaflıq və inklüzivlik şəraitində irəli aparılması, bundan əvvəl götürülmüş öhdəliklərin və vədlərin yerinə yetirilməsinin sürətləndirilməsi istiqamətində bütün zəruri tədbirlərin görülməsinə nail olmaq əzmindədir.

*M.ABDULLAYEV*

# Azərbaycanın sülh mövqeyi qəti və aydındır

## Danışıqlardan yayınmaq Ermənistanın iflasını reallaşdıra bilər

Regional təhlükəsizliyin təmini, eləcə də sülhün formalaşması uğrunda Azərbaycanın apardığı fəaliyyət qlobal miqyasda diqqət mərkəzindədir. Dünyanın bir sıra ölkələri, eləcə də siyasi təşkilatları iki ölkə arasında münasibətlərin normallaşması istiqamətində davam edən danışıqlar prosesinin konturlarını yaxından izləyir, Azərbaycanın səylərini yüksək qiymətləndirir. Bu faktı danışıqlar prosesinə olan maraq, eyni zamanda, ortaya qoyulan mövqelər də təsdiqləyir. Vasitəçisiz davam edən ikitərəfli təmasların verdiyi nəticələr təqdir olunur - istər ötən ilin dekabrında bəyan edilmiş ikitərəfli açıqlama və orada əksini tapan müddəalar, istər bu ilin aprelin 19-da əldə edilmiş razılığa əsasən, 4 kəndin qaytarılması sülhə olan inamı artırır. Xüsusilə, ikitərəfli müzakirələrin davam etdirilməsi ilə bağlı verilən qərar, Qazaxıstanda və ABŞ-da keçirilən ikitərəfli görüşlər bölgədə yeni siyasi situasiyanın yaranması ehtimalını gücləndirir.

### Danışıqlar beynəlxalq səviyyədə diqqət mərkəzində saxlanılır

Sülh ilə bağlı məsələ "Avropa Siyasi Birliyi" 4-cü Zirvə toplantısında Azərbaycan Prezidentinin ayrı-ayrı ölkələrin dövlət və hökumət başçıları ilə görüşlərində də diqqət mərkəzində olub. Prezident İlham Əliyev  qarşı tərəfin müraciətinə əsasən Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ilə görüş zamanı Ermənistan ilə Azərbaycan arasında danışıqlar prosesinin tərkib hissəsi kimi sərhədlərin delimitasiyası və demarkasiyası istiqamətində əldə olunmuş uğurları xüsusi qeyd edib, delimitasiya prosesi ilə əlaqədar sənədlərin razılaşdırıldığını və prosesin bu xətt üzrə davam edəcəyini bildirib. Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan sülh gündəliyini, sülh müqaviləsinin tezliklə imzalanmasını və sülh prosesini dəstəkləyir. Amma bunun üçün, ilk növbədə, Ermənistanın konstitusiyasında Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialar və Azərbaycanın Qarabağ regionunun Ermənistanla birləşməsini nəzərdə tutan müddəalar dəyişdirilməli, konstitusional əsasda Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına son qoyulmalıdır. Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Vaşinqtonda ABŞ Dövlət katibi Entoni Blinkenin dəstəyi ilə keçirilmiş görüşündə də bu məsələlərin müzakirə olunduğu vurğulanıb.

Bundan başqa, tədbir çərçivəsində qarşı tərəfin müraciətinə əsasən Finlandiya Prezidenti Aleksandr Stubb, Litva Prezidenti Gitanas Nauseda ilə keçirilən görüşlərdə də Ermənistan ilə Azərbaycan arasında danışıqlar prosesi ilə bağlı məsələyə toxunulub.

Bəli, 2020-ci il Vətən müharibəsinin və 2023-cü il atiterror tədbirlərinin yekunları regionda yeni geosiyasi reallıqlar formalaşdırıb ki, bu reallıqlardan ən əsası da Cənubi Qafqazda davamlı sülhə nail olunması şərtidir. Ötən dövrdə isə Azərbaycan prosesin irəliyə daşınması üçün kifayət qədər mühüm addımları ilə seçilib. Belə bir zamanda, Azərbaycanın yaratdığı bu mənzərəyə dəstək vermək, təhlükəsizliyin təmini uğrunda səfərbər olmaq Ermənistan üçün ilkin vəzifə sayılmalıdır. Ermənistanın üzərinə mühüm bir iş düşür - rəsmi İrəvan özünün qeyri-adekvat, qeyri-konstruktiv mövqeyindən əl çəkərək sülh prosesinə daha ciddi və zaman etibarı ilə daha tez diqqət yetirməlidir. Çünki bölgənin gələcək inkişafında ən əsas şərtlərdən sayılan təhlükəsizlik seqmentinin bütün detallar üzrə oturuşması üçün Ermənistan ilə Azərbaycan arasında davamlı, sabitliyə xidmət edəcək və əbədi sülhün yaranması ən ümdə şərtdir. Bunun üçün isə rəsmi İrəvan Azərbaycanın 2022-ci ildən təklif etdiyi sülh təşəbbüslərini qəbul etməli, bölgənin azad və təhlükəsiz inkişafı prosesindən iştirakçı olmalıdır. Eyni zamanda, İrəvan bütün qeyri-konstruktiv davranışlardan geri çəkilməli, sülh üçün göstərilən səylər səmimi tərzdə inkişaf etməlidir.



### Konstitusiya dəyişikliyi ilkin şərtdir

Prezident İlham Əliyevin "Avropa Siyasi Birliyi" 4-cü Zirvə toplantısı çərçivəsində Olaf Şolts ilə görüşü zamanı bildirdiyi kimi, ilk növbədə, Ermənistanın konstitusiyasında Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialar və Azərbaycanın Qarabağ regionunun Ermənistanla birləşməsini nəzərdə tutan müddəalar dəyişdirilməli, konstitusional əsasda Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına son qoyulmalıdır.

Bu, amil sülhün ilkin şərtidir. Paralel olaraq Azərbaycanın sülh təşəbbüslərinə səmimi qarşılıq vermək, manipulyasiyaya əl atmamaq Ermənistan üçün həm yeganə, həm də ən effektiv çıxış yoludur. 2 ildən artıqdır ki, müzakirə edilən və fundamental mövzuları dəyişməsə də üzərində iş aparılan sülh şərtləri beynəlxalq hüquqa söykənməklə, mövcud həqiqətləri əks etdirməklə yanaşı, Ermənistanın özünü real dövlət olaraq təsdiqləməsi üçün yeni zəmin yaradır.

Ermənistan Azərbaycanın beynəlxalq aləm tərəfindən qəbul edilən sərhədlərinin toxunulmazlığını tanımaqla yanaşı, Azərbaycana qarşı əsassız ərazi iddialarından rəsmən əl çəkdiyini ortaya qoymalıdır. 200 ilə yaxındır ki, Azərbaycana qarşı əsassız torpaq iddaları irəli sürən, işğal siyasəti aparan Ermənistan artıq bu iddialarından geri durmalıdır. Onlar anlamalıdırlar ki, bu cür xəstə təfəkkürə söykənən əsassız iddialar iki xalqın arasında münasibətlərin kəskinləşməsi ilə yanaşı normal qonşuluq münasibətlərinin yaranmasına da mane olur.

Ermənistanın əsas qanunlar toplusunda Azərbaycanın suverenliyinə qarşı təhdid yer alır. Xatırladaq ki, Ermənistanın Müstəqillik Bəyannaməsi əsasında yazılan konstitusiya 1995-ci il iyulun 5-də qəbul edilib. 2005-ci il noyabrın 27-də dəyişiklik olunub. 2015-ci il iyulun 15-də isə Konstitusiya islahatı üzrə Ermənistan prezidenti yanında xüsusi komissiya 20 il öncə qəbul olunmuş sənədə əlavə və dəyişikliklər edib. Ancaq heç birində Ermənistanın regionda pozuculuq fəaliyyətinə əsas verən məsələlərə diqqət yetirilməyib.

Problem isə ondan qaynaqlanır ki, Ermənistanın Müstəqillik Bəyannaməsinin preambulasında "Ermənistan SSR Ali Sovetinin və Dağlıq Qarabağ Milli Şurasının 1 dekabr 1989-cu il tarixli "Ermənistan SSR-yə yenidən birləşmək haqqında" birgə qondarma qərardan bəhs olunur. Yəni, rəsmi olaraq Ermənistan hələ də 4.4 min kv kmlik Azərbaycan torpağına idldia ortaya qoyur. Türkiyə ilə münasibətlərin tənzimlənməsinə olan maneəyə gəldikdə isə, sənəddə 1915-ci ildə Osmanlı dövlətində qondarma "erməni soyqırımı"nın beynəlxalq səviyyədə tanınmasına nail olunması da vurğulanır.

Beləliklə, Azərbaycan haqlı olaraq Ermənistan Kosntitusiyasının dəyişikliyinə ehtiyac duyulduğunu önə çəkir. Rəsmi İrəvan isə bu məsələni də yenidən manipulyasiyaya uğratmaqla sülhü gecikdirir.




### Danışıqlardan yayınma cəhdləri...

Eyni zamanda, son günlərdə bəzi məsələlərdən "ruhlanaraq" yenidən köhnə, revanşist və təhdid yaratmağa meylli mövqeyinə qayıtmış kimi görünən Ermənistanın danışıqlardan yayınma cəhdlərinə də rast gəlinir. Prezidenti İlham Əliyev Oksfordda Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə görüşdə Ermənistanla Azərbaycan arasında görüşün keçirilməsi barədə təklifinin Ermənistan tərəfindən müsbət cavablandırılmamasını təəssüflə vurğulayıb.

Göründüyü kimi, Ermənistan yenə də danışıqlar prosesini ləngitmək, uzatmaq, prosesdən bu və ya digər bəhanələrlə yayınmaq kimi addımlara cəhdlər göstərir. Bu isə İrəvan üçün müsbət heç bir şey vəd etmir. Əksinə, Azərbaycanla danışıqlar prosesini sabotaj edərək yenidən silahlanmaya meyllənmək Ermənistan üçün sonun başlanğıcı sayıla bilər. Bu isə bütövlükdə, regionun və daha çox Ermənistanın gələcək inkişafı üçün mənfi çalarlar vəd etməkdədir.




*P.İSMAYILOV*

20 iyul 2024-cü il, şənbə № 128 (6714)

# Fransa müstəmləkəçiliyinə qarşı vahid platforma

## Bakıda Beynəlxalq Azadlıq Cəbhəsi yaradıldı

Hazırda Fransanın ağır kolonialist siyasətindən əziyyət çəkən ölkələrdə müstəmləkəçiliyə qarşı mübarizənin yeni mərhələsi başlayıb. Bu mərhələ özünün mütəşəkkilliyi və əsarətə qarşı ayağa qalxan xalqların qəti mövqe sərgiləmələri ilə səciyyələnir. Aparılan mübarizənin məntiqi nəticəsi olaraq getdikcə daha çox ölkədə Fransanın mövcudluğuna son qoyulur.

Əlamətdar haldır ki, son vaxtlarda paytaxtımız müstəmləkəçiliyə qarşı mübarizə fəaliyyətlərinin və dekolonizasiya proseslərinin mərkəzinə çevrilib. Azadlıq istəyən xalqlar Fransanın talançılıq və istismar siyasətinə etirazlarını beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq üçün Bakını ideal məkan hesab edirlər.

### Fransanın irqçi və repressiv siyasəti pislənir

Fransanın müstəmləkəçilik zülmündən qurtulmaq istəyən xalqların nümayəndələri bu günlərdə həmrəyliyin genişləndirilməsi istiqamətində daha bir qətiyyətli addım atıblar. Xəbər verildiyi kimi, Qvadelupanın Azadlığı naminə Xalq Birliyinin təşkilatçılığı və Bakı Təşəbbüs Qrupunun dəstəyi ilə Fransa müstəmləkəçiliyindən əziyyət çəkən Korsika, Melaneziya, Polineziya, Karib və Antil adalar qrupundan olan 20-yə yaxın siyasi partiya və müstəqillik hərəkatlarının rəhbər şəxslərinin iştirakı ilə iyulun 17-18-də Bakıda birinci Qurultay keçirilib. Qurultayın keçirilməsi ideyası Fransanın dənizaşırı ərazilərinin müstəqillik uğrunda mübarizə aparan siyasi partiya və hərəkatlarına məxsusdur. Niderland koloniyaları olan Bonayre və Sən-Martin adalarından 3 təşkilat Qurultayın işində fəxri qonaq qismində iştirak edib. İki gün davam edən qapalı müzakirələrin yekunu olaraq Fransa koloniyalarında müstəqillik uğrunda mübarizə aparan siyasi partiya və hərəkatların rəhbər şəxsləri vahid cəbhənin - Fransa Koloniyalarının Beynəlxalq Azadlıq Cəbhəsinin yaradılmasına dair razılığa gəliblər. Qurultayda iştirak edən Fransa və Niderlandın 17 koloniyasının səlahiyyətli rəsmiləri Beynəlxalq Azadlıq Cəbhəsinin yaradılması haqqında yekun Bəyannaməni imzalayıblar. Həmçinin iştirakçılar Cəbhənin Nizamnaməsini təsdiqləyibər. Sənəddə Fransa kolonializminin irqçi və repressiv siyasəti pislənilib, bu xüsusda Yeni Kaledoniya və digər müstəmləkə ərazilərində Fransa hökuməti tərəfindən həyata keçirilən cinayətlər kəskin qınanılıb. Beynəlxalq Azadlıq Cəbhəsinin təsis olunması Fransa müstəmləkəçiliyinə qarşı mərkəzləşdirilmiş platformanın, vahid çətirin yaradılması deməkdir. Qurultay iştirakçıları müstəqillik uğrunda mübarizədə daha sıx təşkilatlanma, habelə Fransa kolonializminə qalib gələrək müstəqillik əldə etmək yolunda fəaliyyətlərinin əlaqələndirilməsinə qərar veriblər. Hazırda müstəmləkə altındakı digər ərazilər üçün üzvlüyə açıq olacaq Cəbhə Fransa koloniyalarının dekolonizasiya prosesində səylərini birləşdirmək və öz müqəddəratlarını təyinetmə məsələlərini dünya ictimaiyyətinə dolğun şəkildə çatdırmaq məqsədi daşıyır. Bundan başqa, Cəbhənin gələcək fəaliyyətinə müstəmləkəçiliyin aradan qaldırılmasına dair strategiyanın, o cümlədən Fəaliyyət Planının və gündəliyinin hazırlanması, beynəlxalq təşkilatlara təqdim edilməsi kimi məsələlər daxildir.




### Azərbaycana xüsusi minnətdarlıq

Bəyannamədə ölkəmizin dekolonizasiya prosesindəki vacib rolu, habelə Bakı Təşəbbüs Qrupunun müstəmləkə ərazilərinin azadlığı uğrunda apardığı mübarizəyə verdiyi dəstək və sadiqlik xüsusi vurğulanıb, Azərbaycana minnətdarlıq ifadə olunub. Azadlıq mübarizəsinə qalxan xalqların bu mübarizədə ölkəmizin rolunu yüksək dəyərləndirmələri heç də təsadüfi deyil. Qeyd edək ki, Fransa Koloniyalarının Qurultayının keçirilməsi məhz Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə lokomotiv rolunu üzərinə götürərək dekolonizasiya prosesinə verdiyi töhfələrin nəticəsidir. Azərbaycan Fransanın XXI əsrdə üzqarası siyasətini davam etdirməsinə qarşı çıxır. Respublikamız son beş ildə bu istiqamətdə həm Qoşulmama Hərəkatı çərçivəsində, həm də digər platformalarda fəal çalışmalar həyata keçirib. Məhz ölkəmizin səyləri sayəsində Yelisey Sarayının müstəmləkəçilik siyasəti apardığı ölkələr ətrafında quruduğu informasiya blokadası aradan qalxıb. Daha rəsmi Paris müstəmləkə cinayətlərini gizlədə bilmir. Beynəlxalq ictimaiyyət təkcə son vaxtlarda Yeni Kaledoniyada, Fransız Polineziyasında və digər ünvanlarda aborigen xalqların başladıqları azadlıq mübarizəsi barədə məhz Azərbaycan üzərindən məlumat almaq imkanı qazanıb. Respublikamızın ardıcıl səyləri sayəsində artıq kolonializmə qarşı mübarizə çağırışları qlobal gündəlikdə yer alır. Ölkəmiz beynəlxalq birliyə çağırış edir ki, dünya Fransanın kolonializm siyasətinə son qoymasına nail olsun. Eyni zamanda, Fransa ayrı-ayrı ərazilərdə törətdiyi müstəmləkə cinayətlərinə görə üzr istəməli və təzminatlar ödəməlidir.

Fransanın müstəmləkəçilk siyasətinin qanlı izlərinin ifşasında Azərbaycanın təklifləri əsasında yaranan Bakı Təşəbbüs Qrupunun aktiv fəaliyyətinin önəmini xüsusi qeyd edə bilərik.
2023-cü ildən fəaliyyətə başlayan Bakı Təşəbbüs Qrupu artıq beynəlxalq platformaya çevrilib. Təsisat müstəmləkəçilik və neokolonializmlə mübarizənin ardıcıl şəkildə dəstəklənməsi çərçivəsində paytaxtımızla yanaşı, Cenevrədə, İstanbulda, Nyu-Yorka çoxlu sayda beynəlxalq konfrans təşkil edib. Son zamanlar Bakı Təşəbbüs Qrupunun fəaliyyəti hökumətlərarası səviyyədə vurğulanıb. Təşkil edilən bütün beynəlxalq tədbirlərdə Polineziya, Korsika, Melaneziya, Karib dənizi və Antil adalarında məşğulluq, mənzil təminatı sahələrində ayrı-seçkilik halları, təbii sərvətlərin istismarı barədə ətraflı məlumat verilib, Fransa hökumətinin himayəsi altında təşkil edilən kütləvi immiqrasiya faktları diqqətə çatdırılıb. O cümlədən Bakı Təşəbbüs Qrupu bəhs olunan Qurultayı təşkil etməklə müstəqillik hərəkatlarının təşəbbüslərinə və istəklərinə dəstək verməyi qarşıya məqsəd qoyub. Belə tədbirlər gələcəkdə fərqli ünvanlarda da keçiriləcək. Dünya Fransanın irqçi siyasətindən əziyyət çəkən xalqların narahatlığını bütün ciddiliyi ilə dərk etməli və onların apardıqları haqq mübarizəsinə həmrəylik göstərməli, dəstək verməlidir. Nə üçün Fransa özünü müstəsna hüquqlara malik bir dövlət sanmalıdır? Bu ölkənin beynəlxalq hüquqa və özünün bəyan etdiyi prinsiplərə əməl etmək zamanı çatıb.




### Müstəmləkəçiliklə mübarizədə yeni platforma

"Beynəlxalq Azadlıq Cəbhəsi müstəmləkəçiliklə mübarizədə yeni platforma olacaq. Gələcəkdə müstəqillik hərəkatları buraya qoşula biləcəklər". Bu sözləri Bakı



Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov Qvadelupanın Azadlığı naminə Xalq Birliyinin təşkilatçılığı və Bakı Təşəbbüs Qrupunun dəstəyi ilə Fransa müstəmləkəçiliyindən əziyyət çəkən Korsika, Melaneziya, Polineziya, Karib və Antil adalar qrupundan olan şəxslərin iştirakı ilə Bakıda birinci Qurultay çərçivəsində keçirilən mətbuat konfransı zamanı deyib. O bildirib ki, cəbhənin genişlənməsi üçün digər müstəqillik hərəkatlarının onun ali orqanına müraciət etmələri kifayətdir. "Altmış ildir ki, bu koloniyalar Fransaya qarşı ayrı-ayrılıqda xaotik mübarizə aparsalar da, bu cəbhəni yaratmağa nail ola bilməmişdilər. Bu gün isə onlar Bakıda belə bir vahid cəbhə yaratmağa nail oldular", - deyə A.Abbasov diqqətə çatdırıb.

*Mübariz FEYİZLİ*

# Dünya Bankı ölkəmizin biznes mühitini qiymətləndirəcək

Azərbaycan Dünya Bankı ilə yeni çağırışlar fonunda "Əlverişli biznes mühiti" adlı yeni layihə çərçivəsində islahatları və iqtisadi təşəbbüsləri davam etdirməkdədir. Neçə müddətdir ki, "Əlverişli Biznes Mühiti" layihəsinin "Biznesə daxil olma" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələr həyata keçirməkdədir. Bu istiqamətlər üzrə hazırlanmış yeni Yol Xəritəsində 2 altindikator üzrə 4 komponent çərçivəsində 16 müxtəlif tədbir müəyyən edilib. Yeni çərçivəyə əsasən, biznesin təsis edilməsi praktikasının qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilməsi prosesi çərçivəsində ötən müddət ərzində 30-dan çox tədbir həyata keçirilib. Biznesin qeydiyyatının sadələşdirilməsi çərçivəsində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanuna, Əmək, Mülki və İnzibati Xətalar Məcəllələrinə dəyişiklik edilməsi barədə qanun layihələri hazırlanıb və hazırda Milli Məclis tərəfindən baxılmaqdadır.

Layihə üzrə, 2024-cü ildən kommersiya hüquqi şəxsin onlayn qeydiyyatı zamanı "SİMA" elektron imzanın tətbiqinə başlanılıb ki, ötən müddət ərzində artıq 9 yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyət bu üsuldan istifadə edərək qeydiyyatdan keçib. Bildirilib ki, kommersiya hüquqi şəxsin məlumat dəyişikliyinin elektron qaydada həyata keçirilməsi ilə bağlı texniki imkanların yaradılması istiqamətində müvafiq işlər görülür.

"Biznesə daxilolma" adlı işçi qrupu tərəfindən biznesin qeydiyyatının bütün sahələrdə daha da asanlaşdırılması, xüsusilə də




xarici hüquqi şəxslərin ölkəmizdə qeydiyyatdan keçirilməsi proseslərinin səmərəliliyinin təmin edilməsi, paralel olaraq onların təhlükəsizliyinin təmin edilməsi, biznes sektorunun sosial maraqlarının qorunması, kommunal xidmətlər, işçi qüvvəsi, biznes mübahisələri və s. sahələrdə sadələşdirilmiş prosedurların hazırlanması nəzərdə tutulur. Həmçinin müəssisələrin fəaliyyətinin çevikliyinin təmin olunması və sosial maraqlarının qorunması, xarici mənşəli beynəlxalq sənədlərin informasiya sistemlərində elektron rəsmiləşdirilməsinin asanlaşdırılması və "Elektron notariat" informasiya sisteminin tətbiqi, digər elektron infrastrukturların çevikliyinin artırılması islahat təşəbbüsləri sırasında yer alır.

Bütün bunlar Dünya Bankının (DB) ənənəvi "Doing Business" hesabatının əvəzində yeni beynəlxalq iqtisadi qiymətləndirmə indeksində Azərbaycanın mövqeyinin yaxşılaşdırılmasını təmin etmək məqsədi güdür. Dünyanın 190 ölkəsinin biznes mühitinin müxtəlif sahələrini əhatə edən və yeni meyarlara əsaslanan "Business Ready" hesabatı ölkələrdəki iqtisadi-biznes səmərəliliyinin vəziyyətini əks etdirərəcək. Yeni hesabatda müxtəlif ölkələrin, o cümlədən Azərbaycanın biznes sektoruna birbaşa və dolayısı ilə aidiyyəti olan sahələrin, xüsusilə də vergi, gömrük, ticarət, maliyyə, biznes mühiti və s. indikatorlar üzrə qiymətləndirmələr əsasında yekun rəy veriləcək. DB-nin yeni metodologiyasına əsasən, həmin ölkələrin beynəlxalq biznes mövqeyi müəyyənləşəcəkdir.

Qeyd edək ki, Azərbaycan Dünya Bankının əvvəlki - "Doing Business" hesabatlarında son illərdə ən yaxşı islahatçı ölkələr sırasında yer alıb. Ölkəmiz "Biznesə başlama", "Mülkiyyətin qeydiyyatı", "İnvestorların hüquqlarının müdafiəsi", "Vergilərin ödənişi" indeksləri üzrə ən mütərəqqi islahatlar həyata keçirib. 2018-ci ildən sonra



vergi islahatları hesabatda Azərbaycanın bir neçə indeks üzrə irəliləməsində xüsusi rol oynayıb. Belə ki, "Doing Business 2020" hesabatında birbaşa vergi məsələləri ilə bağlı olan "Biznesə başlama" və "Vergilərin ödənişi" indeksləri üzrə Azərbaycan ilk 10 ölkə qrupunda yer alıb. Respublikamız "Biznesə başlama" üzrə dünya sıralamasında 9-cu yerdə, "Vergilərin ödənilməsi" indikatoru üzrə 28-ci yerdə qərarlaşıb.

Hazırda isə Dünya Bankı biznes qiymətləndirməsini tamamilə yeni meyarlar və daha dərin alt-indekslər üzrə həyata keçirdiyindən Azərbaycanın da üzərinə bir sıra vəzifələr düşür. "Doing Business"i əvəz edəcək "Business Ready" hesabatı investisiya və biznes mühitinin qiymətləndirilməsinə daha şəffaf və balanslaşdırılmış yanaşmanı təmin edəcək. Yeni hesabat biznesə başlamaq üçün əsas institusional amilləri, vergi yükü və vergi dərəcələri, biznesin fəaliyyətində vergiqoymanın təsirləri, kommunal xidmətlər, əmək münasibətləri, maliyyə xidmətləri, beynəlxalq ticarət, bazar rəqabəti, mübahisələrin həlli kimi əsas alt-indekslər ölçüləcək.

Ona görə də Azərbaycan hökuməti bu vaxta qədər biznes sahəsində mövcud olan problemləri daha dərindən təhlil edərək müxtəlif təsirli addımlar atmaq niyyətindədir. Biznesin fəaliyyətinə təsir edən əsas amillərdən biri olan vergi mühitinin və vergi-biznes mühiti səmərəliliyinin artırılması da başlıca prioritetlərdəndir.

*ELBRUS*

# Azərbaycanın xarici borcu azalıb

## Ölkəmiz xarici borcun ÜDM-də nisbətinə görə, ən yaxşı ölkələr qrupundadır

2024-cü il 1 iyul tarixinə Azərbaycanın xarici dövlət borcu, xarici ödənişləri üzrə öhdəliklər də nəzərə alınmaqla 5,3 milyard dollar ekvivalentinə bərabər olub. Bu, həcmdə borc portfeli ÜDM-in 10 faizindən də aşağıdır. Azərbaycan hazırda borcun vəziyyətinə görə, dünyanın ən sabit ölkələr sırasında yer alır. Ölkəmiz regionda xarici borcun ÜDM-də nisbətinə görə, ən yaxşı ölkələri qrupundadır. Ölkəmizdə borcun ÜDM-də payı 10 faizdən də aşağıdır. Beynəlxalq praktikada xarici borcun ÜDM-də nisbəti 50 faizi ötdükdə bu, təhlükəli hədd sayılır. Borcun məbləğinin yüksək olması ölkənin ümumi xarici öhdəliklərini pisləşdirməklə yanaşı, milli iqtisadi təhlükəsizliyinə də mənfi təsir göstərir.

Azərbaycan xarici borcun bu nisbətinə görə, MDB, Asiya və Şərqi-Avropa regionu ölkələrinin əksəriyyətindən xeyli yaxşı mövqedədir. Belə ki, Cənubi Qafqaz regionu ölkələrində xarici borcun ÜDM-də nisbəti 40-50 faizə bərabərdir. Ermənistan xarici borcun həcminə görə, bu bölgədə ən təhlükəli ölkələr sırasındadır, bu ölkənin xarici dövlət borcu 2024-cü ilin birinci rübündə 10,9 milyard dollar olmaqla ÜDM-in 50,6 faizini təşkil edir. Borcun adambaşına düşən nisbətinə görə də Azərbaycan ən qənaətbəxş vəziyyətə malikdir. Məsələn, Ermənistanda adambaşına düşən borcun həcmi 3,6 min dollar təşkil edir ki, bu da dünyada ən pis göstəricilərdən biridir. Borcun ÜDM-ə nisbətinə görə, Gürcüstanın da borc yükü Azərbaycana nisbətdə xeyli yüksəkdir. Bu ölkənin xarici borcunun ÜDM-ə nisbəti 43%-dən yuxarıdır. Gürcüstanda adambaşına düşən borcun həcmi 2,8 min dollar təşkil edir. Azərbaycanda isə adambaşına düşən borcun həcmi 540 dollardır.



Cənubi Qafqaz ölkələrində borcun strateji rezervlərin nisbətinə görə də, Azərbaycan ən yaxşı mövqeyə malikdir. Ölkəmizin strateji valyuta ehtiyatlarının həcmi 70 milyard dollar olmaqla borcu 12,8 dəfə üstələyir. Digər region ölkələrindən Ermənistanda rezervlərin həcmi 5,3 milyard dolar olmaqla borcdan 2 dəfə azdır. Gürcüstanın strateji ehtiyatlarının həcmi isə 13,8 milyard dolar olmaqla təxmini olaraq borcla eyni məbləğə malikdir.

Xarici borcla bağlı digər bir məqam beynəlxalq bazarlarda yeni borc alma imkanlarının səmərəliliyi və ölkənin reytinqi ilə bağlıdır. Azərbaycanın ÜDM-ə nisbətdə aşağı borc səviyyəsi və yüksək strateji valyuta ehtiyatları ölkəmizin tədiyyə qabiliyyəti barədə beynəlxalq maliyyə bazarlarında olduqca müsbət rəy formalaşdırıb. Həmçinin ölkəmizdə ictimai-siyasi, iqtisadi və sosial sabitlik, aydın ifadə olunmuş siyasi iradə və perspektivlər xarici borclar üçün risk səviyyəsini aşağı salır. Belə ki, xarici maliyyə institutları borclarını azaldan ölkələrə növbəti borc paketi ayırarkən daha aşağı faizlə və uzunmüddətli şərtlərlə verir. Çünki, borcu qaytarma imkanları yaxşıdır. Bu baxımdan bu gün Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Asiya İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Səudiyyə Fondu və digər beynəlxalq institutlar Azərbaycana ən sərfəli kreditlər təklif edirlər. Azərbaycan həmin sərfəli təklifləri nəzərə alaraq Böyük Qayıdışın sürətlə icra olunduğu şəraitdə öz iqtisadi məqsədləri üçün səmərəli borclanmaya getməyi də istisna etmir.

Maliyyə naziri Samir Şərifov bildirib ki, xarici dövlət borcumuz kifayət qədər aşağı səviyyədədir və yeni borclanmaya getmək ölkəmiz üçün hansısa qayğı yarada bilməz. Hökumət xarici valyutada mühafizəkar borclanma siyasəti aparmaqda qərarlıdır, ancaq əlavə borc cəlb etmək üçün də müxtəlif ssenarilər




nəzərdən keçirilir. Bununla əlaqədar xarici dövlət borcunun təxminən 10 milyard dollar səviyyəsinə qədər artırılması istisna olunmur. Əsas məqsəd ölkəmiz qarşısında duran böyük infrastruktur layihələrinin, dövlət əhəmiyyətli ümdə infrastruktur planlarının icrasıdır ki, bu sahəyə daxili mənbələrdən yönəldilən mənbələrlə yanaşı, əlavə resurslara ehtiyac vardır.

Ölkəmizin qarşısında duran müəyyən çağırışların, layihələrin həyata keçirilməsi prizmasından maliyyə kredit təşkilatları ilə əməkdaşlığı bir qədər genişləndirərək kreditlərin cəlb edilməsi məqsədəuyğun hesab olunub. Bunun da başlıca səbəbi azad edilmiş ərazilərin bərpa və quruculuğu işlərinin daha da sürətləndirilməsi, meydana çıxan zəruri infrastrukturların daha tez yaradılaraq istifadəyə verilməsi və bu bölgənin iqtisadi resurslarını iqtisadi dövriyyəyə cəlb edilməsinin tezləşdirilməsidir. Nəticədə bu siyasət daha səmərəverici olmaqla həmin bölgənin ölkə iqtisadiyyatına reinteqrasiyasını sürətləndirməklə iqtisadi inkişafa töhfə verəcək. Həmin bölgədən əldə edilən milli gəlirlərin dəyəri həmin borcun qısa zamanda qaytarılmasının təmin edilməsində də həlledici rol oynayacaq. Yəni alınan borc Qarabağ və Şərqi-Zəngəzurun qısa bir zamanda dirçəldilməsinin təmin edilməsində köməkçi rol oynamaqla bu bölgədə iqtisadi hərəkətliliyi tezləşdirəcək, insanların öz yurdlarına geri dönüşü daha geniş miqyas alacaq, daha qısa zamanda qayıdış mümkün olacaq. İnsanların məşğulluq imkanları daha dayanıqlı və təminatlı olacaq. Beləliklə, bu bölgədə yaranan əlavə dəyərlərin həcmi bir neçə il ərzində alınan borcu bir neçə dəfə üstələyəcək. Ona görə də, yeni borclanma gələcək reinteqrasiyanın daha tez və şevik formada həllinə kömək edəcək, azad ərazilərin iqtisadi resurslarının ixrac imkanlarını sürətləndirəcək.

Beləliklə, Azərbaycan xarici borclanmanı fiskal dayanıqlığın tərkib hissəsi kimi nəzərdən keçirir və səmərəlilik prinsipini əsas götürür və bu strategiya əsasən iqtisadi imkanların yaxşılaşmasına xidmət edir.

*E.CƏFƏRLİ*

# 149 yaşlı Azərbaycan mediası...

## "Əkinçi"dən başlayan və uğurla davam edən şərəfli yol

Mətbuat zaman-zaman dövrün reallıqlarına, inkişaf tendensiyalarına uyğun olaraq formaca müəyyən transformasiyalardan keçsə də, onun əsas qayəsi həmişə ictimai fikri daha mütərəqqi ideyalarla zənginləşdirib irəli aparmaq, cəmiyyəti maarifləndirmək, informasiya tələbatına ehtiyacı ödəmək olub. Hazırda Azərbaycan jurnalistləri özlərinin peşə bayramını qeyd etməyə hazırlaşırlar. Milli mətbuatımızın əsası görkəmli maarifçi-publisist, ictimai xadim Həsən bəy Zərdabinin misilsiz səyləri sayəsində ərsəyə gətirdiyi "Əkinçi" qəzetinin1875-ci il iyulun 22-də nəşrə başlaması ilə qoyulub. Ötən 149 il ərzində Azərbaycanın inkişafının bütün mərhələləri milli mətbuatımızın səhifələrində öz əksini tapıb.

Mətbuatımız böyük yol keçdiyi kimi, həm də böyük missiya yerinə yetirib. Əgər təşəkkül tapdığı ilk mərhələdə başda Həsən bəy Zərdabi olmaqla milli mətbuatımızın təmsilçiləri insanları xurafatdan uzaqlaşdırmaq, onları təhsilə cəlb etmək, cəmiyyəti maarifləndirmək uğrunda mübarizə edirdilərsə, bu gün vəziyyət tamam fərqlidir - həm texniki imkanlar genişlənib, həm də yeni çağırışlar yaranıb, daha sürətli, daha rəqabətqabiliyyətli və çevik mətbuata ehtiyac yaranıb.

### Azad mətbuatın formalaşmasında Heydər Əliyevin müstəsna rolu

Hazırda ölkəlkər və ictimai fikrin formalaşmasında mühüm rolunu qoruyub saxlayan mətbuat üçün meyarlar dəyişib. Müasir dünyada demokratiya, insanların özlərini ifadə etmək azadlığı beynəlxalq dəyərləndirmələrdə ən önəmli komponentlər kimi nəzərə alınır. Müstəqil Azərbaycan da müasirləşmə xətti tutan ölkədir. Respublikamızda azad mətbuatın fəaliyyətinin stimullaşdırılması, bu məqsədlə dünyanın qabaqcıl ölkələrinin təcrübəsi nəzərə alınmaqla hüquqi əsasların yaradılması da məhz dövlətin qətiyyətli siyasi iradəsindən qaynaqlanır. Deyə bilərik ki, ölkəmiz dövlət-mətbuat münasibətlərində özünün identik nümunəsini təqdim edir. Belə ki, Azərbaycan dövləti bir tərəfdən mətbuatın inkişafını müxtəlif vasitələrlə dəstəkləyir, digər tərəfdən isə onlayn və çap mediasının üzərində hər hansı bir nəzarət mexanizmi tətbiq olunmur, əksinə rəqabətlilik, fikir plüralizmi təşviq edilir. O cümlədən insanların internet üzərindən və digər vasitələrlə mətbuata çıxış imkanları getdikcə genişlənir.

Əksər hallarda mətbuat bir güzgüyə bənzədilir. Ancaq bunu yalnız baş verən hadisələrin onlayn və çap mediası vasitəsilə cəmiyyətə ötürülməsi anlamında qəbul etmək doğru olmazdı. Biz belə deyərdik: Hər siyasi sestemin mövcudluğu dönəmində onun məqsədlərinə və xarakterinə uyğun mətbuat formalaşır. Bu fikrin təsdiqi kimi, müstəqilliyimizin ilk dönəmində milli mətbuatımızda yaşananları xatırlatmaq yerinə düşər. 1992-ci ilin mayında hələ müstəqilliyi kövrək olan respublikamızda qeyri-legitim hakimiyyət dəyişikliyi baş verdi və AXC - "Müsavat" komandası hakimiyyətə gəldi. "Həmin dövrün mətbuatı necə idi?" sualına yalnız təəssüf hissi ilə cavab vermək lazım gəlir. AXC-"Müsavat" iqtidarının dövründə mətbuatımız yaddaşlarda jurnalistlərin təqib edilməsi və hətta birbaşa efirdə döyülməsi ilə yadda qaldı. Elə imzalanan sənədlər də əslində media azadlığının məhdudlaşdırılmasına hesablanmışdı. 16 aprel 1992-ci il tarixində mətbuat üzərində hərbi senzuranın yaradılması haqqında Fərman, 15 aprel 1993-cü il tarixində bütün informasiya yayımı üzərində nəzarət tətbiq edilməsi ilə bağlı Sərəncam imzalandı. Bu sənədlərdə KİV-lərin sərbəst fəaliyyət dairəsini daraltmağı, jurnalistlərin fəaliyyətinə nəzarəti artırmağı özündə ehtiva edən müddəalar yer alırdı. Təbii ki, bütün bunlar da son nəticədə medianın inkişafını əngəlləyir, jurnalistlərin peşə fəaliyyətlərini yerinə yetrimələrinə əngəllər yaradırdı.

AXC-"Müsavat" iqtidarının səriştəsiz idarəçiliyi 1993-cü ilin yayında




gənc müstəqil Azərbaycanı vətəndaş qarşıdurması ilə üz-üzə qoydu. Belə bir şəraitdə xalq qətiyyətlə siyasi hakimiyyətin dəyişməsini istədi və böyük siyasətçi Heydər Əliyevin Azərbaycanın rəhbərliyinə gəlməsini təkidlə tələb etdi. Vətənini çox sevən Heydər Əliyev xalqın təkidli tələbini qəbul edərək ikinci dəfə Azərbaycanın siyasi rəhbərliyinə gəldi.

Heydər Əliyev müstəqil Azərbaycana rəhbərlik etdiyi 1993-2003-cü illərdə milli mətbuatımızın inkişafına yeni yanaşma sərgilədi və burada qlobal miqyasda cəmiyyətlərin demokratikləşməsinin önə çəkilməsini nəzərə aldı. Heydər Əliyev müstəqil Azərbaycanı demokratik dünyanın bir hissəsi kimi görürdü və Onun mətbuatla bağlı aldığı qərarlar da buna hesablanmışdı. Prezident Heydər Əliyevin 1998-ci il 6 avqust tarixində imzaladığı "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərmanı ilə senzuranın ləğv olunması KİV-lər üçün yeni dövr açdı. Bununla yanaşı, 1999-cu ilin sonunda "Kütləvi informasiya vasitələri haqqında" Qanunun qəbulu media təsisatlarının inkişafını şərtləndirən, bəhs edilən sahəyə müvafiq surətdə sahəvi və ümummilli münasibətləri tənzimləyən hüquqi bazanın zənginləşdirilməsi işinə əhəmiyyətli töhfə oldu. 2000-ci ilin mart ayında Heydər Əliyevin Sərəncamı ilə "2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər Proqramı" təsdiq olundu, 2003-cü ilin mart ayında Azərbaycan jurnalistlərinin qurultayında media-ictimaiyyət, media-hakimiyyət münasibətlərini tənzimləyən qurum - Azərbaycan Mətbuat Şurası yaradıldı. Digər çoxsaylı faktları da sadalamaq mümkündür. Bütün bunlar, çox doğru olaraq Azərbaycanda söz, fikir və mətbuat azadlığının bərqərar olunması üçün əlamətdar tarixi hadisələr kimi qiymətləndirilir. O da qeyd edilməlidir ki, mətbuat təmsilçiləri Heydər Əliyevin hərtərəfli diqqət və qayğısına cavab olaraq Onu "Jurnalistlərin dostu" seçiblər.

### Milli mətbuatın inkişafına göstərilən dəstək

İnternet dövrü, dünyada geniş vüsət alan qloballaşma prosesləri mətbuatın inkişafı, informasiya bolluğunun təmin edilməsi üçün geniş imkanlar açdığı kimi, milli mətbuatlara təzyiqləri də artırıb. Belə bir şəraitdə Azərbaycan dövlətinin siyasəti həm KİV-lərin texnoloji inkişafın yaratdığı imkanlardan daha geniş şəkildə bəhrələnmələrinə şərait yaratmaqdan, həm də milli mətbuatın qloballaşmanın təzyiqlərindən qorunmasına hədəflənib.

İndiki mərhələdə milli mətbuatımızın inkişafında dövlət dəstəyi mexanizmlərinin, institusional təsisatların təkmilləşdirilməsinin önəmini ayrıca qeyd etmək lazımdır. Məlum olduğu kimi, Prezident İlham Əliyev 12 yanvar 2021-ci il tarixində "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Fərman imzalayıb. Fərmana əsaən, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs yaradılıb. Müvafiq sahənin inkişafını təmin etmək, bu sahədə dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində iştirak etmək, aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, təkliflərin işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak etmək Medianın İnkişafı Agentliyinin əsas fəaliyyət istiqamətləridir.

Medianın inkişaf perspektivinin daha da genişlənməsi üçün qanunvericilik bazasının təkmilləşdirilməsi də ən əhəmiyyətli məsələlərdən idi - 2021-ci ilin dekabrında ölkəmizdə "Media haqqında" yeni Qanun qəbul olunub. Qanunda indiki dövrün qlobal çağırışları, ölkəmizin hazırkı inkişaf mərhələsinin reallıqları, dövlətin informasiya siyasəti və s. mühüm məqamlar nəzərə alınıb.

Hazırda milli mətbuatımızın inkişaına dövlət dəstəyinin mühüm bir istiqamətini jurnalistlərə qayğı göstərilməsi təşkil edir. Onların peşə fəaliyyətlərinin obyektiv prinsiplər əsasında qiymətləndirilərək fəxri adların verilməsi, sosial müdafiələrinin təşkili davamlı olaraq diqqət mərkəzində saxlanılır. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə jurnalistlər üçün tikilən binalar onlara paylanılıb. Bütövlükdə, Azərbaycan mətbuatı dövlətin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunub. Prezident İlham Əliyevin "Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalaması bu reallığın növbəti təsdiqi kimi tarixə yazıldı. Prezident İlham Əliyev dəfələrlə "Jurnalistlərin dostu" seçilib.

### Yeni çağırışlar media müstəvisində




Dövrün nəbzini tutmaq bütün zamanlarda mətbuatın əsas funksiyaları sırasında olub. Hazırda da Medianın İnkişafı Agentliyi müasir çağırışların media müstəvisində əks olunmasını təşviq edir. Cari il ölkəmizin BMT-nin ən böyük tədbirlərindən biri olan COP29-a evsahiblyi etməsi ilə əlamətdar olacaq. Dünyadakı hazırkı reallıqlar, xüsusilə də qlobal istiləşmə fonunda iqlim çağırışları bütün ölkələr üçün çox mühüm gündəliyə çevrilib. Azərbaycanın COP29 tədbirinə ev sahibliyi hüququnu öz öhdəsinə götürməsi ölkəmizin məsuliyyətinin və həssas yanaşmasının təzahürüdür. Medianın İnkişafı Agentliyi



də iqlim çağırışlarının milli media müstəvisində geniş şəkildə əks olunması üçün müxtəlif tədbirlər reallaşdırır. Məsələn, Medianın İnkişafı Agentliyi və ADA Universiteti İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə COP29 ideyalarının yerli auditoriyaya çatdırılmasında aktiv iştirak edəcək jurnalistlər üçün silsilə təlimlər çərçivəsində "COP29 - "Yaşıl maarifləndirmə"də medianın rolu" mövzusunda iki günlük təlim keçirilib. Həmin təlimdə mütəxəssislərin iştirakı ilə müvafiq mövzuda geniş fikir mübadiləsi aparılıb, jurnalistləri maraqlandıran suallar cavablandırılıb.

***Mübariz ABDULLAYEV***

# Milli mübarizə və milli özünüdərk prosesində əhəmiyyətli rol oynayan jurnalistika...

## "Azərbaycan Milli Mətbuatı-149" adlı tədbir keçirilib

İyulun 19-da Bakıda "Azərbaycan Milli Mətbuatı-149" adlı tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Audiovizual Şurasının, Medianın İnkişafı Agentliyinin (MEDİA), Mətbuat Şurasının birgə təşkilatçılığı ilə reallaşan tədbir Dövlət Himnimizin səsləndirilməsi, Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda mübarizədə şəhid olmuş Vətən övladlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin Müşahidə Şurasının sədri, Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) İdarə Heyəti sədrinin müavini Dağbəyi İsmayılov bildirib ki, 149 il bundan əvvəl Azərbaycan dilində "Əkinçi" qəzeti işıq üzü görüb. "Əkinçi" qəzetini ərsəyə gətirən, onun həm redaktoru, həm də naşiri olan Həsən bəy Zərdabi böyük bir bünövrə qoyub. Sonrakı 149 ildə Azərbaycan mətbuatı çətinliklərə baxmayaraq, həmin bünövrə üzərində sürətli inkişaf yolu keçib və uğurlar qazanıb.

"Azərbaycan mediasının inkişafında Ulu Öndər Heydər Əliyevin çox böyük xidmətləri olub. Ümummilli Lider hakimiyyətinin həm birinci, həm ikinci dövründə daim mediaya diqqət və qayğı göstərib. O, həqiqətən jurnalistlərlə dost olub, mətbuatın inkişafına öz töhfəsini verib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Vətən müharibəsində qalib gəldi, Zəfər çaldı. Müharibə dövründə də Azərbaycan mətbuatı üzərinə düşən vəzifəni çox layi-




qincə yerinə yetirdi, müharibə həqiqətlərini dünya ictimaiyyətinə çatdırdı, bu işdə böyük uğurlar əldə etdi. Müharibədən təxminən bir il sonra Prezident İlham Əliyev "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Fərman imzaladı. Bu Fərmandan qısa müddət sonra isə Medianın İnkişafı Agentliyi yaradıldı. Agentlik medianın inkişafına böyük təkan verdi. Azərbaycan mətbuatı bu gün də uğurlu tərəqqi yolundadır", - deyə o əlavə edib.

Mətbuat Şurasının sədri Rəşad Məcid qeyd edib ki, 149 il əvvəl Həsən bəy Zərdabinin başlatdığı yol Azərbaycanın gələcək taleyinə böyük təsirlər göstərib. Məhz Həsən bəy Zərdabi və "Əkinçi" qəzetindən başlanan yol sonra Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına aparıb çıxardı.

O bildirib ki, sovet dövründə də Azərbaycan jurnalistləri ana dilimizin saflığının qorunub saxlanmasında böyük rol oynayıblar. Ulu Öndər Heydər Əliyev hələ sovet vaxtında Azərbaycana rəhbərlik etdiyi dövrdə jurnalistikaya, söz azadlığına böyük önəm verirdi. Müstəqillik illərində də biz bunun şahidi olmuşuq. Azərbaycanda uzun illərdən bəri mövcud olan senzuraya 1998-ci ildə Ümummilli Liderin Sərəncamı ilə son qoyuldu. Ulu Öndər Heydər Əliyevin başlatdığı mətbuata dəstək siyasəti Prezident İlham Əliyevin dövründə də uğurla davam etdirilir. Dövlətimizin başçısı Azərbaycanın müstəqil mətbuatına dəstək məsələsində dəfələrlə fikirlərini bildirib. "Media haqqında" yeni Qanunun qəbulu, Medianın İnkişafı Agentliyinin yaradılması bu nümunələrdən biridir.

Audiovizual Şuranın üzvü Bəxtiyar Qaraca isə jurnalistikanın dəyişməz dəyərlərindən söz açaraq deyib: "Bu dəyərlər obyektivlik, həqiqətə, fakta sədaqətdir. Vaxt var idi ölkəmizdə cəmi bir televiziya və radio mövcud idi. İndi isə onlarla televiziya, radio və digər mətbuat orqanları var. Audiovizual Şura informasiya daşıyıcılarının bol olduğu bir vaxt-



da qanunla hüququn imkan verdiyi qədər tənzimləmələr aparmağa çalışır".

Tədbirdə çıxış edən Medianın İnkişafı Agentliyinin Müşahidə Şurasının üzvü Vüqar Ziferoğlunun sözlərinə görə, Azərbaycan mətbuatı tarixi həm qürurverici, həm də şərəfli hadisələrlə zəngindir. Bu tarix milli kimliyin formalaşması, maarifçilik hərəkatı və mədəni inkişaf ilə sıx bağlıdır. Bu tarixə nəzər salsaq görərik ki, milli mübarizə və milli özünüdərk prosesində olduqca əhəmiyyətli rol oynayan jurnalistikamız hər zaman öz mövqeyi ilə seçilib.

"Bu gün ölkəmizdə media ilə bağlı davamlı və sistemli işin getdiyinin şahidi olmaqdayıq. Müstəqilliyimizin ilk illərindən Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə başlayan medianın inkişafı sahəsində əldə edilən uğurlar bu gün onun siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən daha da sürətli və dinamik hal alıb. 1998-ci ildə senzuranın ləğvi ilə əhəmiyyətli dönüş yaşamış jurnalistikamız "Media haqqında" yeni qanunla daha da inkişaf edir", - deyə V.Zifəroğlu diqqətə çatdırıb.

Tədbirdə, həmçinin Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin Media təhlil şöbəsinin müdiri Səbinə Seyidova, Agentliyin Media dəstək layihələri və strateji planlaşdırma şöbəsinin müdiri Mehriban Məmmədova, "AzerGold" QSC-nin nümayəndəsi çıxış ediblər.

Daha sonra Medianın İnkişafı Agentliyi tərəfindən "Yaşıl dünya naminə həmrəylik ili" mövzusunda təşkil edilmiş müsabiqənin və "MEDİAlab" layihəsi çərçivəsində keçirilmiş Kreativ Media Bakı məzmun müsabiqəsinin nəticələri elan olunub, qaliblər mükafatlandırılıb.

# Trampın sülh mesajları...

## Respublikaçı namizəd beynəlxalq münaqişələrə son qoyacağını vəd edir

Sirr deyil ki, son illərdə qlobal qarşıdurmaların həm sayı çoxalmaqda, həm də coğrafi sərhədləri böyüməkdədir. Xüsusilə, Mərkəzi Avropa, Yaxın Orta Şərq, Uzaq Şərq və Sakit okean akvatoriyasında baş verən, proqnozlaşdırılan mümkün kataklizmlər böyük böhranlara yol açmaqdadır. 2022-ci ildə başlayan Rusiya-Ukrayna müharibəsinin nəticələri bütün dünyada gedən proseslərə bu və ya digər şəkildə təsir göstərir. Qərbin Rusiyaya tətbiq etdiyi iqtisadi sanksiyalar, Ukraynanın silahlandırılmasına ayrılan maliyyə, Moskvaya qarşı kollektiv mövqe tutulması bu münaqişənin daha da körüklənməsinə yol açıb. Təəssüfləndirici haldır ki, son illərdə bu hal daha çox diqqəti cəlb edir - xüsusilə, ABŞ-ın dövlət rəhbərliyinin təşəbbüsü və təşkilatçılığı ilə keçirilən "Demokratiya sammit"ləri tərs effekt ilə yadda qalıb. Ötən dövrdə baş verənlərin xronoloji statistikasını aparsaq görərik ki, bu proses nəticə etibarı ilə münaqişələrin daha da dərinləşməsinə, revanşist meyllərin ortaya çıxmasına, qarşıdurmaların genişlənməsinə və ən əsası yenilənməsinə, hərbi qütblərin daha açıq qarşıdurmaya sürüklənməsinə yol açıb. Siyasi analitiklər bu baş verənlərdə daha çox ABŞ-ı günahlandırır - bu da anlaşılandır. Çünki, ABŞ dünyanın aparıcı güc mərkəzlərindən biri kimi qlobal sülhün formalaşdırılması prosesini susqunluqla izləməkdədir. Son 4 ildə adıçəkilən strateji məkanlarda kataklizmələrin həm genişlənməsi, həm də fərqli bir aura qazanması Vaşinqtonun "xidməti" kimi dəyərləndirilir. Hətta uzaq okean sularında formalaşdırılan hərbi ittifaqlar (AUKUS-un timsalında) yeni qarşıdurmalar üçün rəvac verən amil kimi çıxış edir - siyasi təhlilçilərin rəyinə əsasən, qarşı güc mərkəzlərinin (qütblərin) arasında həm ritorikanın kəskinləşməsi, həm də qlobal qarşıdurma təhlükəsi məhz bu kimi amillərdən irəli gəlir.

Bu mənada, ABŞ prezidentliyi uğrunda mübarizədə namizəd kimi çıxış edən Respublikaçılar Partiyasının namizədi, eks-prezident Donald Trampın sülhə hədəflənən açıqlamaları bütün dünya tərəfindən diqqətlə izlənir. Onun çıxışları, hazırkı beynəlxalq vəziyyətdə emosiaların azaldılmasına yönəlik irəli sürdüyü proqramlar ciddi şəkildə təhlil edilir - si-



yasi ekspertlərin fikrincə, bu amil Trampın seçki marafonunda açıq fərqlə önə çıxmasına şərait yaradır.

Vurğulandığı kimi, dünyanı silkələyən nüvə təhdidin aradan qaldırılması yönündə atacağı addımlardan bəhs edən Tramp artıq öz proqrmında sülh mesajları verməkdədir. Respublikaçılar partiyasının qurultayındakı çıxışında prezidentliyə namizəd Donald Tramp bildirib ki, dünya Üçüncü dünya müharibəsinin astanasındadır. "Silahlar artıq irəli-geri sürünən və bir-birinə atəş açan tanklar deyil. Biz kütləvi məhv silahlarından danışırıq",- deyə - Tramp vurğulayıb. Onun sözlərinə görə, dünya indiyə qədər heç vaxt yaşamadığı beynəlxalq böhran yaşayır. "Avropada və Yaxın Şərqdə müharibə gedir. Artıq savaş ruhu Koreya, Filippin və bütün Asiyada dolaşır", - deyə Tramp əlavə edib. O, prezident olacağı təqdirdə bütün böyük beynəlxalq münaqişələrə son qoya biləcəyini iddia edib. "Mən bu administrasiyanın yaratdığı bütün beynəlxalq böhranlara, o cümlədən Rusiya və Ukrayna arasında baş verən dəhşətli müharibəyə və İsrailə hücumun törətdiyi müharibəyə son qoyacağam", - deyə respublikaçı namizəd söyləyib.

Bir sıra qərbli analitiklər Trampın bu fikirlərini seçki təbliğatı kimi dəyərləndirsələr də, böyük əksəriyyət eks - prezidentin dövlət başçısı kimi fəaliyyət göstərdiyi dövrdə atdığı addımları xatırladır və bildirirlər ki, Trampın fikirləri həqiqəti əks etdirir. Onun Rusiya-Ukrayna müharibəsinə münasibəti heç kimə sirr deyil - hətta təmsil etdiyi siyasi təşkilatın Konqresdə təmsil olan üzvlərinin Ukraynaya yardım məsələsindəki mövqeyi onu göstərir ki, Respublikaçılar iqtidara gəldikləri təqdirdə Mərkəzi Avropada silahların susma ehtimalı olduqca yüksəkdir.

Bundan başqa, Trampın ötən illərdə Uzaq Şərqə yönəlik sülhpərvər planlarını da göz önünə alan siyasi analitiklərin fikrincə, respbulikaçı namizəd yenidən Şimali Koreya ilə münasibətlərdə dönüş edə bilər - hazırda Uzaq Şərq üçün əsas qarşıdurma ehtimalı olan Koreya plasdarmı sakitliyə və sabitliyə qovuşar. Bu amil Tramp üçün vacibdir. O, qurultaydakı çıxışında KXDR ilə münasibətlərə də aydınlıq gətirib. Bildirib ki, yenidən seçiləcəyi təqdirdə Şimali Koreya lideri Kim Çen Inla münasibətləri bərpa etmək niyyətindədir. "Biz (Ağ Evə) qayıdanda onlarla anlaşacağıq. O (KXDR lideri Kim Çen In) da məni yenidən görmək istərdi". - sabiq prezident qeyd edib.

Beləliklə, noyabrda Respublikaçıların, dolayısı ilə Trampın hakimiyyətə qayıdışı tək Ağ Evdə dəyişikliklər vəd etməyə bilər. Qlobal proseslərdə aparıcı güclərdən sayılan ABŞ-ın beynəlxalq münasibətlərdəki yeni davranış və yanaşması daha çox birləşdirici funksiyonallıq daşıya bilər.

***SADİQ***

# MƏTBUAT TARİXİMİZDƏ “SOVET ERMƏNİSTANI” QƏZETİ

Qərbi Azərbaycanda milli dildə mərkəzi mətbuat orqanı olan “Kommunist” qəzeti 221-ci - sonuncu nömrəsindən sonra 1939-cu ilin sentyabrın 26-da “Sovet Ermənistanı” qəzeti adı altında nəşr olunmağa başlamışdır. 1939-cu ildə cəmi 79 nömrəsi işıq üzü görən qəzet gündəlik 4 səhifədən ibarət böyük formatda çap olunurdu. Qəzetin redaktoru isə tanınmış ictimai xadim, təcrübəli jurnalist Cəfər Vəlibəyov təyin edilmişdir. 50 ilə yaxın “Sovet Ermənistanı” adı altında nəşr olunan qəzet müxtəlif vaxtlarda mövcud olan siyasi-ideoloji maneələrə baxmayaraq, 1989-cu ilə kimi uğurla fəaliyyət göstərmiş, Qərbi Azərbaycanda milli mətbuatımızın əsl salnaməsinə çevrilmişdir. Qərbi Azərbaycanda milli mətbuat tariximizdə mühüm mərhələ təşkil edən “Sovet Ermənistanı” qəzeti 1940-cı ilin iyun ayından kiril əlifbası ilə çap olunmuşdur. Həmin illərdə digər mətbuat orqanları kimi “Sovet Ermənistanı” qəzeti də repressiya dövrünü ört-basdır edir, kolxoz quruluşunun üstünlüklərini təbliğ edirdi. Amma bütün bunlara baxmayaraq, Qərbi Azərbaycanda milli mətbuatın zəngin ənənələrini yaşadıb inkişaf etdirməkdə “Sovet Ermənistanı” qəzetinin böyük xidmətləri olmuşdur.

1940-cı ildə Nəcəf Məmmədov, Adil Axundov, Abdulla Mirzəyev, Hüseyn Nəcəfov, Yusif Abbasov, Salman Rəhimov, Mirəli Seyidov, Əkbər İrəvanlı, Lətif Hüseynov, Cəfər Misgərov, Məmməd Xəlilov və başqa gənclərin qəzetin redaksiyasında müxtəlif şöbələrdə işə cəlb edilməsi bu mətbu orqanın fəaliyyətinin daha da canlandırılmasına, öz ətrafına geniş oxucu kütləsinin və onlarla fəal müxbirin toplanmasına stimul vermişdir.

1941-ci ilə kimi qəzet öz ətrafında ən aktiv fəhlə-kəndli müxbirlərini cəm etmiş və onlarla işgüzar təmasını daha da möhkəmlətmişdir. Regionlarda qəzetin ən aktiv xüsusi müxbirləri İrəvanda - Etibar Rəcəbli, Tahir Abbasov, Cəfər Misgərov, Zəngibasarda - Sadıq Əliyev, Hüseyn Nəcəfov, Vedidə - Mirzə Bəşirov, Fərman İsmayılov, Amasiyada - Məmməd Rəhim Xəlilov, Lətif Hüseynov, Gümrüdə - Məmməd Əliyev, Əştərəkdə - Əli Babayev, Qafanda - Əsəd Əsədov, Cəmil Əliyev, Dilicanda - Salman Həsənov, Çəmbərəkdə - Hüseyn Mustafayev, Haqverdi Tağıyev, Həsən Tağıyev, Rəis Məmmədov təmsil edirdilər.

Qəzet özünün 20 illiyinə xüsusi nömrə buraxmasa da, 1941-ci il 105-ci sayının 3-cü səhifəsini bu əlamətdar hadisəyə həsr etmişdir. EK (b) P Vedi rayon komitəsinin katibi Məmməd Məmmədov, Basarkeçər rayon icraiyyə komitəsinin katibi Talıb Musayev, Kalinino rayon icraiyyə komitəsinin katibi Əli Qurbanov, Amasiya rayon icraiyyə komitəsinin təşkilat şöbəsinin müdiri Həsən Hüseynovun qəzetdə birgə dərc etdirdikləri məqalədə azərbaycanlılar yaşayan bölgələrdə bir sıra problemlərin aradan qaldırılması və müxtəlif sahələrdə uğurlu inkişafın əldə olunmasına böyük diqqət göstərilməsində, gənc azərbaycanlı kadrların hazırlanmasında onlara əməli köməkliklərin göstərilməsi istiqamətində geniş tədbirlərin həyata keçirilməsində “Sovet Ermənistanı” qəzetinin böyük rol oynadığı barədə məlumat verilir. Yuxarıda adlarını qeyd etdiyimiz şəxslər mütəmadi olaraq qəzetlə əməkdaşlıq edir və vaxtaşırı onun səhifələrində çıxış edirdilər.



**Cəlal Allahverdiyev, filologiya üzrə fəlsəfə doktoru, dosent**



“Sovet Ermənistanı” qəzetinin 20 illiyi münasibəti ilə “Həyatımızın təcrübə məktəbi” başlıqlı məqalədə vaxtilə gənc yaşlarında qəzetlə əməkdaşlıq edən müxbirlərindən Ələmdar Haşımov, Əli Heydərov, Mamed Əsədov və başqalarının ilk dəfə bu mətbu orqanda fəaliyyətə başladıqlarından bəhs edilir.

Mətbuatın sürətli inkişafına onun işinin tərkibinin dərinləşməsinə kütləvi fəhlə-kəndli hərəkatı çox böyük köməklik göstərmişdir. Araşdırmalardan aydın olur ki, 1941-ci ilin may ayına kimi qəzetlə daim əməkdaşlıq edən fəhlə-kəndli müxbirlərinin sayı 800-dən artıq olmuşdur. Bütün bölgələrdə fəhlə-kəndli müxbirlərinin sayı ilbəil getdikcə daha da artırdı. Redaksiya kəndli müxbirlərindən hər gün 35-40 məktub alırdı. Bu da hər ay orta hesabla 800-850 məktub edirdi. Redaksiya təkcə 1940-cı ildə 6167 müxbir məktubu almışdır ki, bunlardan da 4924 məktub qəzetin səhifələrində çap olunmuşdur. “Sovet Ermənistanı” qəzetinin redaksiyası təkcə Qərbi Azərbaycanın müxtəlif bölgələrindən deyil, eyni zamanda keçmiş İttifaqın müxtəlif şəhərlərindən, xüsusilə də Azərbaycandan il ərzində minlərlə məktub alırdı. Redaksiyanın məktublar şöbəsi onları çeşidləyib, ayda bir neçə dəfə “Bizə yazırlar” rubrikası altında qəzetin səhifələrində dərc edirdilər. Yerlərdən redaksiyaya məktub axınının belə çox olması Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların bu qəzetə olan inamının göstəricisi idi. Qəzetin səhifələrində dərc olunmuş həmin məktubları nəzərdən keçirdikdə onların böyük əksəriyyəti yerlərdəki haqsızlıqlardan, soydaşlarımızın üzləşdiyi problemlərdən, pozulmuş hüquqlarından və digər sahələrdə baş verən neqativ hallardan bəhs edildiyi məlum olur. Soydaşlarımızın pozulmuş hüquqları öz həllini tapmadığı təqdirdə, şikayətçinin əli hər yerdən üzüləndən sonra, məktubla axırıncı ümid yeri kimi inandıqları-güvəndikləri “Sovet Ermənistanı” qəzetinə üz tuturdular. “Sovet Ermənistanı” qəzetinin redaksiyasında müraciətlərə diqqət çox güclü idi. Yazılara “soydaşlarımızın ümid və güvən yeri” amalı ilə yanaşılırdı. Həllini tapan bütün məktublar “Sovet Ermənistanı”nın köməyi ilə” rubrikası adı altında qəzetdə dərc edilirdi.

Lakin qəzet əldə edilən bu uğurlarla kifayətlənmirdi. Qəzet və onun müxbirləri mətbuatın ən gözəl nümunələrini yaratmaqla üzərilərinə düşən missiyanı şərəflə yerinə yetirməyə çalışırdılar.

Bununla yanaşı, dövrün sosial həyatda yaratdığı çətinlik və problemlər qəzetin çapının zəifliyi və kağız qıtlığında da özünü göstərirdi. 1941-ci illərdə qəzetin həcmində və bəzi nömrələrində səhifələrin sayı fərqli göstərilir. 1941-ci ilin sonlarından başlayaraq qəzet həftədə 4 dəfə iki səhifə həcmində çıxmışdır. 12 aprel 1942-ci il 87-ci nömrəsindən etibarən isə qəzet həftədə 5 dəfə iki səhifədən ibarət çap olunmuşdur. Qəzet 1944-1945-ci illərdə həftədə 4 dəfə iki səhifə həcmində çıxmışdı. Həmin illərdə həftədə 4 dəfə nəşr olunan qəzetin üç nömrəsi iki, bir nömrəsi isə 4 səhifə həcmində çap olunurdu. 1946-cı illərdə qəzetin həftədə 4 dəfə iki səhifə həcmində çap olunmasına da rast gəlirik.

Müharibə ərəfəsində Qərbi Azərbaycanda yaşayan ziyalıların bir qismi repressiya qurbanı olmuş, bir qismi isə o cümlədən qəzetin əməkdaşları Lətif Hüseynov, Yusif Abbasov, İbrahim Əliyev, Cəlal Sərdar və başqaları döyüşən ordu sıralarına çağrılmışdı. İrəvanda Azərbaycan ictimai, ədəbi mühitində bir qədər sönüklük yaranmışdır. Həmin vaxtlarda “Sovet Ermənistanı” qəzetində diqqəti cəlb edən məqamlardan biri qələm sahiblərinin insanları döyüşə ruhlandıran, sabaha inamla baxmağa və nikbin olmnağa səsləyən poetik nümunələridir. “Sovet Ermənistanı” qəzeti çox vaxt yerli şair və yazıçılarla yanaşı Bakıda yaşayıb-yaradan şairlərin də şeirlərini, bədii nümunələrini dərc edirdi.

1945-ci ildə müharibə qurtardıqdan sonra müharibənin vurduğu ağır yaraları sürətlə sağaltmaq, dağılmış xalq təsərrüfatını sürətlə bərpa etmək, şəhər və kəndləri yenidən qurmaq, müharibədən sonrakı beşillikləri müvəffəqiyyətlə yerinə yetirmək uğrunda səfərbərliyə almaqda partiyanın genişləndirdiyi təşkilatçılıq işinin və kütləvi izahat işinin ayrılmaz hissəsi idi.

Böyük Vətən Müharibəsindən sonra əvvəlki illərlə müqayisədə “Sovet Ermənistanı” qəzetində də dönüş nöqtəsi yaranmışdır. Müharibədən sonrakı quruculuq dövrü mətbuatın inkişafını stimullaşdıran qüvvəyə çevrilmişdir. Həmin dövrdə “Sovet Ermənistanı” qəzeti xalq təsərrüfatının ayrı-ayrı sahələrindən müntəzəm təsirli yazılar verməklə yanaşı, ədəbi-mədəni mühitlə bağlı yazılar da vermişdir. Həmin dövrdə qəzetin əsas heyətini fəhlə-kəndli müxbirlər təşkil etsə də, qəzet öz səviyyəsini və operativliyini qoruyub saxlaya bilmişdir.

1946-cı ildə qəzetin ən fəal bölgə müxbirləri sırasında özünə yer almış Ağa Ağayev, Əli Dünyamalıyev (Keşişkənd), Səməd Novruzov (Amasiya), Nurəli Qurbanov (Qafan), Əli Həsənov (Qarabağlar), Elman Məmmədov (Noyemberyan), Oktay Məmmədov (Kalinino) və başqaları öz üzərilərinə düşən missiyanı şərəflə yerinə yetirmişdilər. Qəzetin müxbirləri yerlərdə aparılan abadlıq, inşaat, kolxoz quruluşunun inkişafı və s. əlaqədar olan mühüm işlərə dair ən kiçik məlumatı belə mətbuat vasitəsi ilə oxuculara çatdırmağa çalışırdılar. Həmin illərdə Allahverdi rayonu üzrə qəzetin ən fəal bölgə müxbirlərindən biri Tapdıq Novruzov olmuşdur. Gənc müxbir Tapdıq Novruzov hər gün kəndləri, mis mədənlərini pay-piyada dolaşıb əsasən fəhlə əməyi, kolxozun işi haqqında yazır, eləcə də qəzetin xüsusi müxbiri kimi iqtisadi mövzularda məqalələr qəzetə göndərirdi. Tapdıq müəllim “Sovet Ermənistanı” qəzetinin Allahverdi rayonu üzrə bölgə müxbiri işlədiyi dövrdə irilixırdalı 300-ə kimi məqaləsi qəzet səhifələrində çap olunmuşdur. O, 1946-cı ilin sonlarından 1963-cü ilin ortalarına kimi qəzetin bölgə üzrə müxbiri vəzifəsini uğurla yerinə yetirmiş, milli maraqlarımızın ifadəçisi kimi çıxış etmişdir. Tapdıq müəllimin bir sıra dövri mətbuat orqanlarında çap olunmuş məqalələri bu gün də öz aktuallığını qoruyub saxlayır.

Müxbirlərin sayını artırmaq, onların bilik səviyyəsini yüksəltmək, tarixi qərarların həyata keçirilməsini təmin etmək üçün müntəzəm olaraq tədbirlər həyata keçirilirdi. Bu mənada, müxbir konfrans və müşavirələrinin keçirilməsi ənənəyə çevrilmişdi. Bu cür tədbirlərdə müvafiq qurumların nümayəndələri kəndli-fəhlə müxbirləri qarşısında çıxış edirdilər. Məsələn, qəzet 1947-ci ilin iyul ayının əvvəlində fəal oxucu və fəhlə-kolxozçu müxbirlərinin respublika müşavirəsi keçirildiyini bildirir. “Sovet Ermənistanı” qəzetinin 1947-ci il 153-cü nömrəsində həmin müşavirənin çağrılması və gedişinə dair ətraflı məlumat verən “Müxbir və oxucularımızın respublika müşavirəsi” sərlövhəli yazıdan aydın olur ki, iyul ayının 27-də keçirilən müşavirədə İrəvan Qiyabi Pedaqoji İnstitutunun, Qiyabi Pedaqoji məktəbinin və İrəvan Azərbaycanlı Kənd təsərrüfatı texnikumunun müəllim və tələbələrindən, o cümlədən şəhər və rayon təşkilatlarından 400-ə qədər müxbir və oxucu iştirak etmişdir. Müşavirədə “Oxucu və müxbirlərin ümdə vəzifələri haqqında” məruzə edilmişdir. Məruzə ətrafında fəal müxbirlərdən Hüseyn Nəcəfov (Zəngibasar), Ağa Ağayev (Keşişkənd), Yusif Süleymanov (Bağçalar), İrəvan Dövlət Pedaqoji İnstitutundan Zaman Vəliyev, Allahverdi rayonundan Tapdıq Novruzov və Eyvaz Eyvazov çıxış edərək qəzetin işindəki uğur və nöqsanlardan ətraflı bəhs etmiş, bu mətbu orqanın ahəngdar fəaliyyətinin təmin edilməsinə, əldə edilən nailiyyətlərin daha da artırılmasına dair bir sıra əməli təkliflər irəli sürmüşdülər. Bu baxımdan qəzetin Allahverdi rayonu üzrə müxbiri Tapdıq Novruzovun çıxışı və bu mətbu orqanla bağlı günün ən aktual problemini önə çəkməsi daha çox diqqəti cəlb edir. O, əvvəlcə bu qəzetin əhəmiyyətindən və təsir gücündən bəhs edir, sonra isə “Sovet Ermənistanı” qəzetinin gündəlik nəşr edilməsini zəruri hesab edərək bildirir: “Deməк lazımdır ki, istər bizim rayonda və istərsə də respublikamızın başqa rayonlarında əldə edilən müvəffəqiyyətlərin qat-qat artırılmasında, habelə baş verən nöqsanların aradan qaldırılmasında “Sovet Ermənistanı” qəzetinin köməyi çox olmuşdur. “Sovet Ermənistanı” qəzeti zalqımızın gündən-günə artan tələbini heç də tamamilə ödəyə bilmir. Gündəlik məlumatların çoxu qəzet səhifələrində işıqlandırılmır. Mən qəzetin tirajının artırılmasını və gündəlik olması zərurətini irəli sürürəm” (92).

**davamı növbəti sayımızda**

# Milli mənəvi dəyərlərimiz...

## Zəngin tarixi irsimiz milli kimliyimizin təsdiqidir

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği” istiqaməti üzrə hazırlanmışdır**

Hər bir xalqı özünəməxsus edən, digər xalqlardan fərqləndirən şərtlərdən biri də mədəniyyəti və milli adət-ənənələridir. Milli mənəvi dəyərlərin, adət-ənənələrin, milli folklorun yaradıcısı isə xalqdır. Bu mənada, Azərbaycan xalqının zəngin mədəni irsi, yüksək mənəvi dəyərləri, qədim tarixə söykənən milli adət-ənənələri bütün dünya üçün nümunədir. Xalqımızın yaşatdığı və təbliğ etdiyi bəşəri ideyalar, adət-ənənələr və milli dəyərlər öz yüksək səviyyəsi ilə, qədimliyi və gözəlliyi ilə seçilib.

Bu istiqamətdə aparılan tədqiqatlar, elmi araşdırmalar da təsdiqləyir ki, Azərbaycan xalqı əsrlər boyu qədim köklərə malik maddi və mənəvi xəzinəsini qoruyub saxlamaqla yanaşı, inkişaf etdirib. Bu ənənələr, dəyərlərimiz milli folklorumuzda, şifahi xalq ədəbiyyatımızda, o cümlədən nağıllarımızda, atalar sözlərində, bayatılarda, nəhayət, “Kitabi-Dədə Qorqud” dastanında əksini taparaq uzaq keçmişin sınaqlarından çıxaraq müasir dövrümüzə qədər uzun və şərəfli bir yol gəlib.

**Dövlətçiliyimizin tarixi çox qədimdir...**

Mövzu barədə “Yeni Azərbaycan”a danışan folklorşünas Məhəmməd Məmmədov bildirib ki, yaşadığı coğrafiyadan asılı olmayaraq hər bir azərbaycanlı öz tarixini, mədəniyyətini, özünün milli keçmişini, dövlətçilik ənənələrini bilməli və yaşatmalıdır. Onun sözlərinə görə, Azərbaycan tarixi türk tarixindən ayrı öyrənilə bilməz: “Tariximiz Şumerdən üzü bəri böyük bir yol keçib. Dilimizin, folklor motivlərinin bağlılığı bunu sübut edir. Azərbaycan dövlətçiliyinin tarixi əslində bununla bağlıdır. Miladdan öncə ən azı 2000 illik dövrdə Azərbaycan dövlətlərinin tarixini izləmək mümkündür. Miladdan sonra Azərbaycan ərazisində Manna Midiya ondan əvvəl Kutilər, Lullubilər və s. olub. Qafqaz Albaniyasının da ən böyük xalqı Azərbaycan türkləri olub. Dədə Qorqud motivləri eradan əvvələ gedib çıxır. Azərbaycan qədim türk vətənidir. Bəzən deyirdilər bizim dövlətimiz 18-20 ci ildə Milli Azərbaycan Xalq



Cümhuriyyəti ilə başlayıb. Azərbaycan Xalq Cümhuriyyəti sadəcə dövlətçiliyimizin bir mərhələsidir. Demokratik Cümhuriyyət dövrüdür. Amma ondan əvvəl Səfəvilər, Avşarlar, Qacarlar, Atabəylər, Ağqoyunlular, Qaraqoyunlular ayrı-ayrı zamanların Azərbaycan tarixində özünəməxsus yeri olan dövlətlərimizdir. Nadir şah Əfşarın vəfatından sonra yaranan Azərbaycan xanlıqları ərazisinə görə o qədər böyük olmasa belə, hərəsinin ayrılıqda mühüm tarixi inkişaf mərhələsi mövcuddur. Bizim dövlətçiliyimizin tarixi çox qədimdir”.

**Əsrlər keçsə də, aktuallığını itirməyən incilərimiz**

Folklorşünas qeyd edib ki, yaradıcılıqlarında bəşəri ideyaları təbliğ edən Nizami Gəncəvi, Əfzələddin Xaqani, İmadəddin Nəsimi, Məhəmməd Füzuli və sözü ilə dünyanı heyrətdə saxlayan neçə-neçə söz dühamız tariximizi, mənəvi dəyərlərimizi öz poeziyalarında vəsf etməklə həm də yaşadıblar. Bu ölməz əsərlər həm də Azərbaycan xalqını və dövlətini dünyaya tanıdıb: “Əsrlər keçsə də aktuallığını itirməyən bu ədəbi nümunələr nəsildən-nəslə xalqımızı milli mənəvi, eləcə də ümumbəşəri dəyərlər əsasında tərbiyə edib. Bu zəngin bədii irsdə xalqın soykökünə bağlı olan adət-ənənələr yaşayaraq əsrimizə, yeni minilliyədək gəlib çatıb. Bütün bunların kontekstində Azərbaycan vətəndaşının varlığı göstərilir. Uzun illərin yolu və əsrlərin, qərinələrin sorağı bizi bu ənənələrə bağlayıb, dövrümüzə körpü salıb.

Müasir insanın formalaşması və özünütəsdiqi məhz milli mənəvi dəyərlərin təkmilləşməsi ilə sıx bağlıdır. Azərbaycan xalqı öz kökləri ilə bəşəri düşüncə və yaradıcı həyat fəaliyyətinin istiqamətlərini müəyyənləşdirib. Mənəvi dəyərlər toplumuz, mədəni irsimiz hazırda xalqımızın fəxr mənbəyi və dünya mədəniyyətinə töhfəsi kimi qəbul edilir. Milli-mənəvi dəyərlərin inkişafına göstərilən dövlət qayğısının günü-gündən artması və beynəlxalq təcrübənin tətbiqi istiqamətində görülən işlər mədəni irsin gələcəyinə nikbin baxmağa ümidləri artırır”.

**Dünya muzeylərində mədəniyyətimizin izlərini axtarmalıyıq**

M.Məmmədov bildirib ki, Qarabağdakı böyük qələbədən sonra qürur duymalı və inkişafa addım atmalıyıq: “Mədəniyyətimizin, tariximizin, televiziyamızın, təhsilimizin həmin qələbəyə layiq bir şəkildə qurulmasına çalışmalıyıq. Əsl Azərbaycan mədəniyyəti min illərlə dağıdılsa da, oğurlansa da amma izi itməyib. Biz böyük bir mədəniyyətin sahibiyik. Məsələn, Cənubi Azəərbaycanda Həsənli mədəniyyəti var. Onun qızıl əşyaları dünyanın hər yerinə yayılıb. Azərbaycan xalçaları, əlyazmalarımız dünyanın bütün muzeylərində var. Azərbaycan öz mədəniyyətinin sərhədlərini müəyyənləşdirməli, mədəniyyətinin izlərini dünya muzeylərində axtarıb tapmalıdır. Onların ən azı kataloqunu tutub tədricən toplamaq lazımdır”.

*Yeganə BAYRAMOVA*





# 806 namizəd, 585 səlahiyyətli nümayəndə qeydiyyatdan keçib

Mərkəzi Seçki Komissiyasının (MSK) iyulun 19-da keçirilən iclasında beş siyasi partiyanın 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Milli Məclisə növbədənkənar seçkilərdə səlahiyyətli nümayəndələrinin qeydə alınması ilə bağlı müraciətlərinə baxılıb.

MSK sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkiləri ilə əlaqədar Gələcək Azərbaycan Partiyasının, Müsavat Partiyasının, Azad Vətən Partiyasının, Vəhdət Partiyasının və Ədalət Partiyasının səlahiyyətli nümayəndələrini qeydə alıb. Məsələ səsverməyə çıxarılaraq qəbul edilib.

MSK sədri Məzahir Pənahov bildirib ki, sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkilərinə 806 nəfər namizədlik üçün müraciət edib. O qeyd edib ki, partiyaların 585 səlahiyyətli nümayəndəsi artıq qeydiyyatdan keçib. 532 nəfərin isə namizədliyinin irəli sürülməsi təsdiqlənib. “451 nəfər imza vərəqləri alıb. 31 nəfər isə imza vərəqlərini qaytarıb. 4 nəfərin namizədliyi qeydə alınıb”, - deyə sədr vurğulayıb.

# Ermənistan mülki əhalini hədəfə alır

## Mina partlayışlarının böyük hissəsi keçmiş təmas xəttindən kənarda baş verir

Azərbaycan dünyada mina terrorundan ən çox əziyyət çəkən ölkələrdən biridir. 30 illik işğal dövründə Ermənistan  çoxlu sayda hərbi cinayətlər törədib ki, bunların sırasında mina terroru da əsas yerlərdən birini tutur. 2020-ci il Vətən müharibəsindən sonra isə mina qurbanlarının ümumi sayı 370 nəfərə çatıb.

Bu fakt göstərir ki, Ermənistan tərəfindən Azərbaycan torpaqlarında işğal dövründə basdırılmış minalar mülki şəxslərin və hərbi qulluqçuların həyatına təhlükə yaratmaqda və son qoymaqda davam edir. Ərazilərimizdə basdırılmış minalar və partlamamış hərbi sursatlar işğaldan azad edilmiş bölgədə bərpa və yenidənqurma işlərinin icra edilməsinə, keçmiş məcburi köçkünlərin təhlükəsiz şəkildə öz yurdlarına qayıdışına və bu torpaqlarda yaşayışına ciddi maneə törədir. Yeri gəlmişkən, bugünlərdə Azərbaycan Minatəmizləmə Agentliyi (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov bildirib ki, mina hadisələrinin əksəriyyəti keçmiş təmas xəttindən kənarda baş verir: “Mina partlayışlarının 70 faizinin keçmiş təmas xəttindən kənarda baş verməsi onu göstərir ki, minalar məntiqsiz və qeyri-peşəkar şəkildə yerləşdirilib. Bu səbəbdən, əməkdaşlar təmizləmə prosesinə həddindən artıq diqqətlə yanaşırlar. 2020-ci ilin noyabr ayından bu günə qədər 148 min hektardan cox ərazi minalardan və müharibənin digər partlayıcı qalıqlarından təmizlənib. 124 min ədəddən artıq mina və müharibənin digər partlayıcı qalıqları aşkar edilərək zərərsizləşdirilib”.





Ümumiyyətlə, Ermənistan tərəfindən 30 ilə yaxın işğal dövründə basdırılmış minaların dəqiq xəritələrinin təqdim olunmaması isə onların beynəlxalq hüququn və beynəlxalq humanitar hüququn norma və prinsiplərinə hörmətsizliyini hələ də açıq şəkildə nümayiş etdirməkdədir. Ümumiyyətlə, beynəlxalq təşkilatlar Ermənistanın mina terroruna biganə qalmamalı, törədilən hərbi və ekoloji cinayətlərə, humanitar hüquq pozuntularına sərt reaksiya verməli, dəqiq mina xəritələrinin Azərbaycana təqdim edilməsi istiqamətində bu ölkəyə ciddi təsirlər göstərməlidir. Xüsusilə, mina qurbanlarının sayının artmasının əsas səbəblərindən biri  Ermənistanın üzərinə götürdüyü öhdəliyə zidd olaraq dəqiq mina xəritələrini ölkəmizə verməməsidir. Məlumdur ki, müharibə başa çatandan sonra Ermənistan mina xəritələrinin bir hissəsini Azərbaycan tərəfinə təhvil vermişdi. Lakin araşdırmalar nəticəsində məlum oldu ki, erməni tərəfinin təqdim etdiyi xəritələrin cəmi 25 faizi düzgündür. Rəsmi Bakı dəfələrlə Ermənistana düzgün xəritələrin verilməsi ilə bağlı çağırış edib. Nəzərə almaq lazımdır ki, mülki təyinatlı ərazilərin kütləvi şəkildə minalanması beynəlxalq hüquq normalarının ciddi şəkildə pozulması ilə yanaşı, insanlıq əleyhinə törədilən cinayətdir. Ermənistanın minaları təmas xəttindən kənarda basdırmasının məqsədi də mülki insanların daha çox itki verməsi məqsədi daşıyır. Hazırda azad olunmuş ərazilərdə böyük quruculuq işləri həyata keçirilir. Həmin ərazilərdə mina qurbanı olanlar da daha çox quruculuq işləri ilə məşğul olan mülki şəxslərdir. Bu fakt bərpa işlərinin daha sürətli aparılmasına ciddi əngəl törədir. Ona görə də, müvafiq beynəlxalq təşkilatlar, bütövlükdə dünya ictimaiyyəti Azərbaycanın çağırışlarına adekvat cavab verməli və bütünlüklə dəqiq mina xəritələrinin ölkəmizə təhvil verilməsi üçün rəsmi İrəvana təzyiq göstərilməlidir.

Eyni zamanda, Azərbaycan öz ərazilərinin minalardan təmizlənməsi işində beynəlxalq təşkilatlardan fəal dəstək gözləyir. Ona görə də, qeyd etdiyimiz kimi, müvafiq beynəlxalq təşkilatlar, ayrı-ayrı ölkələrin parlamentləri, insan haqlarının müdafiəsi ilə məşğul olan qurumlar Azərbaycana qarşı davam etdirilən mina terroruna biganə qalmamalıdır.

*NARDAR*

# Makronun yalanı...

## Fransa prezidenti əsassız iddialarla özünü ifşa edir

Böyük Britaniyada keçirilən "Avropa Siyasi Birliyi"nin 4-cü Zirvə toplantısında iştirak edən Fransa prezidenti Emmanuel Makron keçirdiyi mətbuat konfransı zamanı Azərbaycana qarşı əsassız iddialar səsləndirib. Belə ki, mətbuat konfransında azərbaycanlı jurnalistin "Əgər siz sülh tərəfdarısınızsa, o zaman Ermənistanı niyə silahlandırırsınız?" sualına cavabında "Bu, təbiidir. İki suveren ölkə müdafiə sahəsində əməkdaşlıq edir. Hansısa bir dövlətin özünü silahlandırması normal haldır..." deyib. Makron daha sonra Azərbaycanın da son illərdə özünü silahlandırdığını və guya "2020-ci ildə Ermənistana hücum etdiyini" iddia edib.

## XİN: Fransanın sülhə xidmət etməyən və regionda sabitliyi pozan səyləri heç bir nəticə verməyəcək

Fransa prezidentinin bu əsassız fikirlərinə cavab özünü çox gözlətməyib. Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadə Makronun mətbuat konfransı zamanı Azərbaycanla bağlı söylədiyi fikirləri şərh edib. O, təəssüflə bildirib ki, Emmanuel Makronun "Avropa Siyasi Birliyi"nin Zirvə toplantısında Ermənistanın hərbiləşdirmə siyasətinə haqq qazandıran və Azərbaycana qarşı açıq qərəzli mövqe nümayiş etdirən fikirləri Fransanın regionda gərginlik yaratmaq və sülh prosesinə mane olmaq cəhdlərinin daha bir bariz nümunəsidir. Fransa tərəfinə xatırladılıb ki, Azərbaycanın suveren ərazilərində Ermənistanın 30 il davam edən işğalına son qoymaq, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü bərpa etmək üçün apardığımız müharibə ölkəmizin beynəlxalq hüquq çərçivəsində legitim hüququ idi. Azərbaycanın istənilən səyi, o cümlədən hərbi potensialının gücləndirilməsi ədalətli məqsədə yönəlib və yönəlməkdədir. Lakin bunu işğalçı dövlət olan Ermənistana münasibətdə söyləmək olmaz. 30 ilə yaxın Azərbaycan ərazilərini işğal altında saxlayan, bir milyona yaxın azərbaycanlını öz doğma yurd-yuvasından didərgin salmış, kütləvi qırğınlar və insanlığa qarşı cinayətlər törətmiş Ermənistanı Fransa tərəfindən sülhsevər ölkə kimi təqdim etməsi bu ölkənin həm vasitəçilik dövründə, həm də 44 günlük Vətən müharibəsindən sonra apardığı siyasətin nə qədər ədalətsiz olduğunu nümayiş etdirir.

"Onu da xatırlatmaq istərdik ki, münaqişənin sülh yolu ilə həllinə töhfə verməyən, Ermənistanın Azərbaycan ərazilərinin işğalına son qoymağın qarşısını alan məhz Fransa kimi dövlətlərin Ermənistanın 30 ilə yaxın müddətdə təcavüzünü ört-basdır edən siyasəti olub. Qeyd olunanları nəzərə alaraq bir daha bildiririk ki, Fransanın sülhə xidmət etməyən və regionda sabitliyi pozan səyləri heç bir nəticə verməyəcək", - deyə A.Hacızadə vurğulayıb.



## İcma: Pozucu əməlləri dayandırmağı tələb edirik

Məsələ ilə bağlı Qərbi Azərbaycan İcması da bəyanat verib. Bəyanatda 2020-ci ildə Azərbaycanın öz ərazilərini 30 illik işğaldan azad etməsini mənfi müstəvidə təqdim etməyə cəhd göstərən Fransa prezidentinə xatırladılıb ki, 44 günlük Vətən müharibəsi BMT Nizamnaməsinin müddəalarının və Təhlükəsizlik Şurasının konkret qətnamələrinin icrasını təmin etməklə beynəlxalq hüququn və ədalətin təntənəsi olub. Prezident Makron bu şanlı tarixə qara yaxmağa cəhd göstərmək əvəzinə, Fransanın uzun illər ərzində Ermənistanı dəstəkləyərək onu Azərbaycan ərazilərinin işğalını davam etdirməyə cəsarətləndirməsinə görə öz ölkəsinin məsuliyyətini etiraf etməlidir. "Vurğulamaq lazımdır ki, Azərbaycan ərazilərinin 20 faizini zəbt edərək 30 il ərzində işğal altında saxlamış Ermənistana Fransanın silah satması ordusunda və bir çox siyasi dairələrində revanşist hisslərin hakim olduğu bu ölkəni Azərbaycana qarşı təkrar müharibəyə sövq etmək və regionu qana çalxalamağa xidmət edir. Qərbi Azərbaycan İcması Fransadan Ermənistanı silahlandırmasını və digər pozucu əməllərini dərhal dayandırmağı tələb edir",-deyə bəyanatda bildirilib.



Qeyd edək ki, Azərbaycanın sülh çağırışlarına rəğmən rəsmi İrəvan hərbiləşmə siyasətini davam etdirir. Ötən ildən başlayaraq Fransa Ermənistana silah tədarük edir. Eyni zamanda, Hindistan da İrəvana müxtəlif növ silahlar satır. Təbii ki, Ermənistanın silahlandırılması regionda hərbi gərginliyin yaradılmasına xidmət edir.

## Fransa ilə yanaşı Hindistan da erməniləri silahlandırır

Fransa ilə yanaşı Hindistanın da son zamanlar Ermənistana silah tədarükü ölkəmizdə etirazla qarşılanır. Məsələ ilə bağlı hərbi ekspert Ədalət Verdiyev KİV-ə açıqlamasında bildirib ki, Ermənistan ordusunun fərari hərbi qulluqçuları ABŞ-la birgə təlimlər zamanı Hindistan istehsalı olan dəbilqəyə quraşdırılan termal görüntülü monokulyardan istifadə ediblər. Hindistanın "Tonbo Imaging" şirkətinin istehsalı olan bu avadanlıqlar hay ordusunda əvvəllər mövcud olmayıb. Hazırda isə Ermənistandan başqa Hindistan ordusu da "Spartan-SH" adlanan bu monokulyardan məhdud sayda ələ edib.

Ekspert xatırladıb ki, müharibədəki məğlubiyyətdən sonra hind və erməni mətbuatında dəfələrlə İrəvanın Hindistandan artilleriya sistemləri, "Pinaka" reaktiv buraxılış qurğularının, müxtəlif atıcı silahların, döyüş sursatı və partlayıcı maddələrin alınması barədə məlumatlar tirajlanırdı: "2022-ci ildən sonra məğlub Ermənistan fərari ordusunu modernləşmək və müdafiə qüvvələrinə yardımı etmək üçün dəfələrlə Hindistana müraciət edib. Ermənistanın bəzi müraciətləri müharibədən az əvvəl baş tutub. 2020-ci ildə Ermənistan Hindistandan 40 milyon dollara dörd ədəd "Svathi" kontrbatareya atəş radarı əldə etdi, lakin onlar Azərbaycanla müharibə zamanı uğurlu tətbiq edilmədi. Müharibədən sonra isə Ermənistan Hindistandan "Pinaka" reaktiv yaylım atəşi sistemini və "Akash" zenit raket kompleksini alıb. Lakin bu silahları Ermənistan müharibədən sonrakı dövrdə istifadə etməyib. Ümumiyyətlə, Azərbaycan Ermənistana şərti dövlət sərhəd xəttinə hücum silahı yaxınlaşdırmamaq üçün bir neçə dəfə ciddi xəbərdarlıq edib".

Ermənistan anlamalıdır ki, regionda sabitliyi və sülhü təmin etməyin yeganə yolu qonşu ölkələrin suverenliyinin və ərazi bütövlüyünün tanınmasıdır. Eyni zamanda, həmin şərtlərə əməl etməklə münasibətlər qurulmalı və bu istiqamətdə təhlükə yaradan çağırışlar aradan qaldırılmalıdır. Rəsmi İrəvan həqiqətən sülhün tərəfdarıdırsa, əməli fəaliyyəti ilə bunu nümayiş etdirməlidir. Əks halda, revanşizmin artması, silahlanmanın davam etməsi Ermənistanın özü üçün ciddi problemlər yaradacaq.

*Nardar BAYRAMLI*

# Bir qucaqda milyon qızılgül

Parisin "Bel Vyu" adlı miniatür teatrı 1905-ci ildə Tiflis şəhərinə bir həftəlik qastrol səfərinə gəlir. Səfərdən bir neçə gün öncə şəhərin görkəmli yerlərinə "Yenilik! Bel Vyu öz ecazkar aktrisası Marqarita de Sevr ilə qonağımızdır!" məzmunlu afişalar yapışdırılır. Afişaların üstünü şanson müğənnisi, ecazkar rəqqasə Marqaritanın şəkli bəzəyir. Sonralar rus yazıçısı Paustovski bu fransız xanım haqda belə yazmışdı: "Bütün kişilər Marqaritanın gözəlliyinə ehtiyac duyurdular. Lakin onun ürəyinin qapıları həmişə bağlı idi. Xanım davranışlarında özünə etinasız görünsə də, gəzdirdiyi gözəlliyə ciddi qulluq edərdi hiss olunurdu. Şux ipək geyimi və bihuşedici Şərq ətirləri Marqaritanın gözəlliyinə əlavələr qatır, onu daha "təhlükəli" gözələ döndərirdi".

Bəzən bir qarın yeməyə və bir şüşə çaxıra kafelərin girəcəyinə, divarlarına şəkillər çəkən, gecələr Kür çayının sahillərində tənha veyillənən Tiflisin qaranlıq zirzəmilərində gecələyən Niko Pirosmani Marqaritanın afişadakı şəklini görən kimi ona aşiq olur. Qırx üç yaşlı kimsəsiz, səfil rəssam qastrola gələn teatr heyətinin qaldığı mehmanxananın yerini soraqlayıb gecəylə tapır. Niko şəkildə gördüyü fransız xanıma öz sevgisini çatdırmaq üçün səhər tezdən bazara gedib borc-xərc tapdığı pullarına bir qucaq qızılgül alır. O, gətirdiyi gülləri Marqaritanın müvəqqəti yaşadığı məhəlləyə aparan dar cığırlı daş döşəmələrə bir-bir düzərək onun yaşadığı otağın qarşısına qədər uzadır. Yollarına qızılgül səpələnmiş aktrisa səhər tezdən gördüyü mənzərədən çox təsirlənir və bu jestin müəllifi ilə maraqlanır. Güllərin kim tərəfindən düzüldüyü teatr truppası üçün bir neçə gün müəmmalı qalır.

Niko gülləri üzünü görmədən sevdiyi qadının məhəlləyə qalxdığı daş cığırlara düzdükdən sonra bu sevincini zirzəmi kafelərin birində qeyd etməyə yollanır. İçki məclisində özünü saxlaya bilməyən Pirosmani söhbəti dostlarına açır. Həmin günün axşamı səfil rəssamın sevgi macərası kafelərdən bayıra çıxıb bir neçə günə bütün Tiflisə yayılır.

Belə bir insanın mövcudluğundan xəbər tutan Marqarita Pirosmaniyə teatrlarının konsert dəvətnaməsini göndərir. Dəqiq yeri-yurdu bilinməyən, tutduğu əməlin məstliyindən günlərlə ayılmayan rəssam dəvətdən xəbərsiz qalır. Heyranı olduğu aktrisanın göndərdiyi dəvətnamə teatrın Parisə dönüşündən bir neçə gün sonra rəssama çatır. Vurulduğu xanımın dəvətnaməsini vaxtında almayan Niko eşidəndə ki, Marqarita hansısa varlı bir pərəstişkarı ilə Tiflisdən Parisə gedib, çox sarsılır. Lakin bu əhvalatdan sənət tarixinə "Aktrisa Marqarita" adlı bir Pirosmani şedevri ərməğan olur.

Zirzəmi küncündə çaxırla baş-başa qalan Pirosmani haqda yayılan söz-söhbət getdikcə şişirdilib dastana çevrilir. Guya rəssam Marqaritanın yaşadığı məhəlləyə bir araba gül göndəribmiş. Gürcü qopbazları sonralar başqa versiyalar danışdılar. Guya Nikonun bir evi varmış, o evi satıb Tiflis mağazalarındakı bütün gülləri alaraq doqquz arabaya yükləyib Marqaritaya göndərir.

Sonralar həmin əhvalatdan xəbər tutan məşhur rus şairi Andrey Voznesenski "Million alıx roz" şeirini yazır. Şeirə Raymond Pauls gözəl bir nəğmə bəstələyir. Həmin mahnı Alla Puqaçovanın ifasında bütün dünyaya yayılır...

Nikolay Aslanoviç Pirosmanişvili təxminən 1862-ci ildə Kaxetiyanın Mirzəyanı adlı dağ kəndində kasıb bir ailədə dünyaya gəlmişdi. Niko dördüşaqlı ailənin ən kiçiyi idi. O, səkkiz yaşında olarkən atası Aslan dünyasını dəyişir. Ərinin ölümündən sonra ailənin maddi durumu ağırlaşdığına görə anası Təklə xanım Nikonu bakılı sahibkar Eprosina Kələntərovanın yanına qulluqçu göndərir. Atasının öləndə qədər qulluq elədiyi Kələntərovlar ailəsinə qaynayıb-qarışan Niko 1870-ci illərin ortalarında öz taytuşu olan Georgi Kələntərovla Şulaver kəndindən Tiflisə gəlir. Niko Tiflisdə əl işləri ilə məşğul olan bir-iki usta yanında şəyird durur, gürcü və rus dillərində yazıb-oxumağı öyrənir. Lakin o, ustaların verdiyi cüzi məvacibdən bezir və təxminən 1876-cı ildə yenidən Mirzəyanı kəndinə, bacısının yanına qayıdır. Gələcəyin məşhur rəssamı burada bir müddət çobanlıqla məşğul olur.

Şəhər mühitinə can atan Pirosmani 1880-ci ildə yenidən Tiflisə gedir, çörəkpulu qazanmaq üçün rəssam dostu Qiqo Zaziaşvili ilə dekorativ yazılar dükanı kirayələyir. Kafe-dükanların üstünə yazdıqları reklam yazılarından gələn gəlirlə dolana bilməyən dostlar dükanı bağlamalı olurlar.

Niko 1890-cı ildən dəmir yolunda yol nəzarətçisi işləyir. Yoldəyişmə işində ciddi rejimə dözməyən Pirosmani tezliklə bu işdən də azad edilir.

Niko cüzi pul qazanıb yaşamaq üçün Dmitri Aluqişvili adlı bir alverçi tanışı ilə süd dükanı açır. Elə həmin vaxtlardan rəssamın ilkin əl işləri yaranmağa başlayır. Pirosmani dükanın giriş qapısının yanlarına ölümündən sonra şedevr sayılacaq "Ağ inək" və "Qara inək" adlı iki rəsm çəkib asır. Bu rəsmlərdən sonra dükana gələn müştərilərin sayı günügündən artır. Lakin alverə maraq göstərməyən Niko tez-tez dükanı tərk edib Mirzəyanı kəndindəki doğmalarının yanına qaçır, orada da qərar tuta bilmir, təzədən Tiflisə qayıdırdı. Bir müddət süd alveri ilə məşğul olan dostunun verdiyi cüzi pulla keçinsə də, Niko Pirosmani 1880-ci ildən artıq rəsm sənəti ilə pul qazanmağa qərar verir.

Heç bir rəssamlıq məktəbində təhsil almadan qeyri-adi rəsmlər çəkən bu arıq, ucaboy, adamayovuşmaz adam haqda müxtəlif söz-söhbət gəzməyə başlayır. Guya Niko gecələr müqəddəs varlıqlarla gəzib-dolaşdığına görə onun fırçasını Tanrının özü idarə edir.

Pirosmani öz rəsmlərini köhnə stolüstü kulyonkalardan düzəltdiyi freskalara çəkirdi. Elə buna görə rəssam kulyonkalardakı rəngləri yox etmək üçün çəkdiyi rəsmlərin əksəriyyətini qara fonda işləməli olurdu.

Evsiz-eşiksiz rəssam ailə qurmağa risk eləmir, beləcə, hərdən aldığı sifarişləri yerinə yetirməklə xırda gəlirlə yaşayır, Tiflisin zirzəmilərində sərxoş-sərxoş uyuyurdu. Rəsm çəkmək ehtirası günü-gündən alovlansa da, heç kim Pirosmanişvilini rəssam kimi görmür, onun meyxanalar üçün çəkdiyi rəsmlərini ciddiyə almırdı.

1912-ci ildə futurist şair İlya, onun qardaşı - futurist rəssam Kiril və rəssam dostları Mixail Lyö Dantyü Nikonun bir neçə rəsmini toplayaraq haqqında yazıb qəzetlərdə çap elətdirirlər. Beləcə, futurist rəssamların 1913-cü ildə Moskvada düzənlədiyi "Mişen" adlı sərgidə şair İlya Zdaneviçin Tiflisdən gətirdiyi Pirosmani rəsmlərinin də bir neçəsini salonun divarından asırlar. Sərgidən sonra gənc gürcü rəssamları Pirosmaninin yaradıcılığı ilə maraqlanmağa başlayır, Almaniyada təhsil almış David Şevardnadze isə onun rəsmlərini toplamağa girişir.

5 may 1916-cı ildə Kiril Zdaneviç öz emalatxanasında Pirosmaninin birgünlük sərgisini keçirir. Lakin belə xırda cəhdlər onun həyatında heç nəyi dəyişə bilmir, evsiz rəssamın maddi ehtiyaclarını ödəmirdi. Təkcə bir dəfə Tiflisdə yenicə yaranmış Rəssamlar İttifaqı ona 200 manat yardım edə bilir. Rəssamın arzuladığı geniş həyətli bir ev, həyətində mütəmadi olaraq müxtəlif rəssamların rəsmlərindən ibarət sərgi keçirmək arzusu elə arzu olaraq qalır.

Pirosmaninin müasiri olan gürcü rəssamı Lado Qudiaşvili xatirələrində yazır: "Nikonu Rəssamlar İttifaqının iclasına dəvət etmək mənə həvalə olundu. Soraqlaşaraq onun yaşadığı evi çox çətinliklə tapdım. Mən ora çatanda gördüm uşaqlar onun qapısını daşlayırlar. İçəridən isə dəli adamın boğuq bağırtı səsi gəlirdi. Qapını ədəblə döydüyümə görə durub açdı. Dərin bir zirzəmidə yaşayırdı. Dəvətimi eşitdikdən sonra ayağa durub üst-başını göstərərək dedi: bu əyin-başla mötəbər insanların üzünə necə çıxa bilərəm?.."

Məşhur rəssam Pirosmani 1918-ci ildə 56 yaşında öz zirzəmisində tənhalıq içində dünyadan köçür. Ölümündən sonra onun çoxlu sərgiləri düzənlənir, haqqında əsərlər yazılır, həyatından filmlər çəkilir. Nikonun əsərlərinin hər birinin qiyməti milyon dollarla qiymətləndirilir.

Pirosmani bu dünyanı gözəlləşdirmək üçün özündən sonra "Aktrisa Marqarita", "Maral", "Beş zadəganın şənlənməsi", "Çariça Tamara", "Kaxetiya çaxırı", "Zürafə", "Şota Rustaveli", "İnək sağan", "Müqəddəs Georgi", "Bulağa gedən ana", "Süpürgəçi", "Pivə içən qadın", "Odun daşıyan" kimi iki yüzə yaxın rəsm əsəri qoyub getdi...

*Murad Köhnəqala*

# Ursula Fon der Lyayen ikinci dəfə AK prezidenti oldu

## Alman siyasətçi daha 5 il öz vəzifəsini icra edəcək

Ursula Fon der Lyayen ikinci müddətə Avropa Komissiyasının Prezidenti seçilib. Avropa Xalq Partiyasının namizədi olan 65 yaşlı alman siyasətçinin lehinə Avropa Parlamentinin 720 deputatından 401-i səs verib. Xatırladaq ki, ötən ayın sonlarında Belçikanın paytaxtı Brüssel şəhərində Avropa İttifaqının ikigünlük sammitində aparılan müzakirələr nəticəsində Aİ dövlətlərinin liderləri qeyri-rəsmi olaraq Avropa Komissiyasının, Avropa İttifaqı Şurasının rəhbərlərinin və Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə Ali nümayəndəsinin təyin olunması ilə bağlı razılıq əldə etmişdilər. Avropa İttifaqı Şurasının rəhbəri və Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə Ali nümayəndəsi vəzifəsinə yeni şəxslər seçilsə də, Avropa Komissiyasının Prezidenti vəzifəsinə yenidən Ursula Fon der Lyayen layiq görüldü. Xanım Lyayen hələ fevral ayında bu vəzifəyə namizəd olmaq istəyini açıqlamışdı. Ursula Fon der Lyayen Avropa Komissiyasına sədrlik etdiyi beş il ərzində 27 ölkəni birləşdirən Avropa İttifaqı Brexit, COVID-19 pandemiyası, Rusiyanın Ukraynaya hücumu və bu kimi bir sıra sınaqlardan keçib.



## Karyera tramplini...

Ursula Fon der Lyayen kimdir və onun siyasi karyerası nədən ibarətdir? Milliyyətcə alman olan Lyayen 1958-ci ildə Brüsseldə doğulub. Təhsil həyatına Brüsseldəki Avropa Məktəbində başlayıb. 1971-ci ildə Almaniyaya qayıtdıqda Lehrte Liseyində Elm və Riyaziyyat fakültəsini oxuyub, 1977-ci ildə Gottingen Universitetində və Münster Universitetində iqtisadiyyat üzrə təhsil almağa başlayıb. 1980-ci ildə hər iki universiteti bitirib. O, hətta London İqtisadiyyat Məktəbini də bitirib. Xanım Lyayenin təhsil həyatı bununla yekunlaşmayıb. O, 1980-ci ildə tibb təhsili almağa qərar verərək Hannover Tibb Kollecinə daxil olub və 7 il sonra məzun olub. 1988-1992-ci illərdə Hannover Universitetində assistent həkim vəzifəsində çalışıb. Həyat yoldaşı Stenford Universitetində işlədiyi üçün 1991-1996-cı illərdə ABŞ-da - Kaliforniyada yaşayıb. O, Stenford Universitetində qonaq məruzəçi kimi biznes departamentində çıxışlar edib. 1998-2002-ci illər arasında isə Hannover Universitetində Epidemiologiya, Sosial Tibb və Sağlamlıq Sistemləri Tədqiqatları Departamentinin müəllimi olub. 2001-ci ildə burada Xalq Sağlamlığı üzrə magistr dərəcəsini alıb.

Ursula Fon der Lyayen 1990-cı ildə həyat yoldaşı ilə birlikdə Xristian Demokratlar İttifaqına (CDU) qoşulub. Almaniyaya qayıdan Lyayen 1999-cu ildən fəal siyasətlə məşğuldur. 2003-cü ildə Aşağı Saksoniya ştatının parlamentinə üzv seçilib. 2003-2005-ci illərdə Aşağı Saksoniyanın baş naziri Kristian Vulfun kabinetində sosial müdafiə, qadınlar, ailə və səhiyyə naziri olub. Lyayenin siyasi fəallığı və işgüzarlığı ovaxtkı kansler Angela Merkelin diqqətini cəlb edib. Bunun nəticəsində o, 2005-ci ildə Angela Merkelin kabinetində ailə, yaşlı vətəndaşlar, qadınlar və gənclər naziri vəzifəsində çalışıb. 2009-cu ildə keçirilən federal seçkilərdə isə Aşağı Saksoniyadan Almaniya Bundestaqının üzvü seçilib. O, seçkidən sonra səhiyyə naziri olmaq niyyətində idi, lakin koalisiya qurma səyləri zamanı bu vəzifə FDP üzvü Filip Röslerə verildi. Frans Cozef Yunq 27 noyabr 2009-cu ildə Əmək və Sosial Məsələlər Nazirliyindən istefa verəndə Fon der Lyayen bu vəzifəyə təyin edilib. Beləliklə, siyasi karyerasında ulduzu parlayan Fon der Lyayen Merkelin yerinə namizədlər arasında favorit kimi görünürdü. Merkel onu son sınaqdan keçirdi və 2013-cü ilin dekabrında Almaniya federal siyasətində ən çətin vəzifəyə - müdafiə nazirliyinə təyin etdi. Bununla da o, Almaniyanın ilk qadın müdafiə naziri olub.

## Korrupsiyada ittiham olundu, sui-istifadədə günahlandırıldı...

Xanım Lyayen 2019-cu ilin dekabrında isə Avropa Komissiyasının prezidenti seçilib. Beş il ərzində Avropa İttifaqı müstəvisində önəmli qərarların təşəbbüskarı kimi yadda qalıb. Ursula Fon der Lyayen daha effektiv xarici siyasətin tərəfdarıdır. Beynəlxalq ictimaiyyət onu Rusiya-Ukrayna müharibəsi fonunda rəsmi Moskvaya qarşı ciddi sanksiyaların təşəbbüskarı kimi də tanıyır. Bununla belə, onun adı korrupsiya qalmaqallarında da hallanıb. Belə ki, bu ilin aprelində Fransanın "Vətənpərvərlər" Partiyasının lideri Florian Filippo iddia etmişdi ki, Avropa Komissiyasının rəhbəri korrupsiya sxemi yaradıb. O zaman "Liberation" nəşri də sensasiya sayıla biləcək ittihamlarla çıxış etmişdi və Lyayenin öz partiyadaşı Markus Piperi Avropa Komissiyasında kiçik və orta müəssisələr üzrə müşavir postuna təyin etməsi ilə bağlı bir sıra faktlar açıqlamışdı. Bildirilmişdi ki, Avropa Komissiyasının prezidenti bu postu öz korrupsiya əməllərini reallaşdırmaq üçün təsis edib, posta təyinatı da yaxın ətrafındakılara verib. Qəzet yazmışdı ki, əvvəllər də Ursula Fon der Lyayenin öz yaxın dostlarının, xüsusən də alman soydaşlarının komissiyada rəhbər postlara təyin edilməsinə çalışıb. Eyni zamanda, bu da söylənilirdi ki, Avropa Komissiyasının rəhbəri və "Pfizer" şirkətinin baş direktoru arasında COVID-19 vaksinlərinin alınması ilə bağlı korrupsiya razılaşması olub. Lakin bu iddialarla bağlı ona heç bir rəsmi ittiham irəli sürülməyib.



## Azərbaycan ilə Anlaşma Memorandumu imzaladı...

Eyni zamanda, xanım Lyayen Avropa İttifaqının yeni enerji siyasətinin formalaşmasında da xüsusi rol oynayır. O, bu məsələdə Azərbaycanı Aİ-nin əsas tərəfdaşlarından biri hesab edir. Lyayenin 2022-ci il iyulun 18-də ölkəmizə səfəri zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında "Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" imzalanıb. Sənədi Azərbaycan Prezidenti İlham Əliyev və Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen imzalayıblar. "Həqiqətən siz bizim üçün mühüm enerji tərəfdaşısınız. Siz təkcə təchizat təhlükəsizliyi sahəsində deyil, həmçinin iqlim neytrallığı sahəsində də hər zaman etibarlı olmusunuz. İndicə imzaladığımız Anlaşma Memorandumu bizim enerji tərəfdaşlığımızı daha da gücləndirir",- deyən xanım Lyayen bu Memorandum vasitəsilə Aİ-nin Cənub Qaz Dəhlizinin genişləndirilməsi ilə bağlı üzərimizə öhdəlik götürdüyünü, eləcə də bərpaolunan enerji ilə bağlı əməkdaşlığın güclənəcəyini bəyan edib.

Beləliklə, Avropanın siyasi elitasında böyük nüfuz sahibi olan Ursula Fon der Lyayen növbəti beş il üçün Avropa Komissiyasının Prezidenti kimi hazırkı kursu davam etdirmək niyyətindədir.

**N. BAYRAMLI**

# Atalıq taxtından yıxılan kral

## Vilyam Şekspirin "Kral Lir" faciəsi haqqında

**II YAZI**

Şekspirin pyeslərində, ələlxüsus bütün dünyada tanınan, oxunan, səhnəyə qoyulan adı bəlli tragediyalarında vəhşi təbiətin bağrından qopmuş insan vücudunu gecə-gündüz yönəldən, vulkantək püskürüb zəlzələtək titrəyən, ildırımtək çaxıb dolutək yağan ehtiraslar başlıca hədəfdir. Məsələn, "Romeo və Cülyetta", "Hamlet" faciələri insan ömrünü puç mübarizəylə yüklənmiş arabaya qoşan düşmənçilik, qisasçılıq kimi instinktiv impulsların törətdiyi fəlakətləri, "Otello" saf məhəbbəti qarabaqara izləyən qısqanclığın korluğunu, "Maqbet" hakimiyyət ehtirasının insan bətnində açdığı gizli lağımları, dərin uçqunları ifşa eləyir. Bu baxımdan "Kral Lir" faciəsində əsas hədəf valideynlik duyğusu, nəsil instinktidir.

Bu instinkt öz miqyasına, mərtəbəsinə görə adına şəhvət dediyimiz erotik instinktdən bir qat yuxarıda, ehtirasların ən alisi olan universal hakimiyyət instinktindən bir qat aşağıda qərar tutub. Fikir verdinizsə, mən miqyasdan, mərtəbədən danışdım, gücdən, qüvvətdən yox. Mənəviyyat sferasından fərqli olaraq instinktlər aləmində miqyasın böyüməsi, mərtəbənin yüksəlməsi gücün artmasına düz mütənasib deyil; eynən mifik Şeytanın tərsinə yeriməsi kimi ehtirasın da gücü böyüdükcə, ucaldıqca azalır. Nəfəs almaq, su içmək, yatmaq, qidalanmaq - bunlar ən ibtidai, ən primitiv, eyni zamanda ən güclü instinktlərdir, çünki insan bunlarsız bir neçə dəqiqə, bir neçə saat, uzaq başı bir neçə gün keçinə bilər, fəqət şəhvətini doyurmadan, nəsil artırmadan, heç bir hakimiyyətə yiyələnmədən lap yüz il də yaşayar.

Şeytani məntiqin tərsliyi, tərsinəliyi, paradoksallığı burasındadır ki, fərd ehtirasların ibtidaisindən alisinə doğru ucaldıqca, zəncirini, boyunduruğunu daha da yoğunlatdıqca özünü bu dünyanın bağlarından daha az asılı, daha azad hiss eləyir, keçilmiş mərhələlərə qayıtmaq istəmir. Bir udum nəfəs üzərində hakimiyyət bir qitə, bir planet üzərində hakimiyyətdən daha zəruridirsə də, vacib olanla vacib olmayanın arasında vurnuxan fərd çox vaxt ikincini seçir. Hakimiyyət hərisi tiranların, taxt-tac vurğunu despotların timsalında qoca tarix bu işlərə çox şahidlik eləyib - neçə-neçə krallar, qeysərlər, sultanlar hakimiyyətini, taxtını qorumaq üçün doğma övladının da, sevimli arvadının da başından keçib.

***

Ancaq kral Lir onlardan deyil, o, nəsil instinktinə daha çox güvənir. Qocaldığına görə kral səltənətinin torpaqlarını üç qızı arasında bərabər bölmək istəyir - hər pay qızlardan birinin cehizi olacaq. Görünən budur ki, kralın atalıq instinkti hakimiyyət ehtirasından güclüdür, o, taxt-tacsız keçinə bilər, amma qızlarından izzət, itaət görməsə, yaşaya bilməz. Buna görə kral Lir pay bölgüsünə başlamamış övladlarının onu nə qədər sevdiyini onların öz dilindən eşitmək istəyir. Cehiz verilən torpaqların miqyası qızların ata məhəbbətinin şiddətindən asılı olacaq.

Birinci böyük qız Qonerilya, ondan sonra ortancıl qız Reqana nitq söyləyir. Dediklərindən belə çıxır ki, onlar üçün atalarına məhəbbət hər şeydən vacib, hər hissdən ucadır. Yaşlandıqca ərköyünləşmiş, özünə vurğunluğu qıcqırmağa başlamış kral onların boğazdan yuxarı saxta mədhiyyələrindən xoşallanır. Söz üçüncü qıza - Lirin ən sevimli övladı Kordeliyaya çatanda o deyir ki, atasını nə qədər sevməyə borcludursa, o qədər sevir; əlbəttə, o, sevgisinin bəlli bir hissəsini gələcək həyat yoldaşına, gələcək övladlarına bağışlamalı, onlar arasında bölməlidir. İkisi də ərli olan böyük bacılar bu məsələnin üstündən keçdikləri halda hələ ərə getməmiş Kordeliya məhəbbətindən ərinə də pay saxladığını gizlətmir, ürəyindən keçənləri olduğu kimi mərdi-mərdanə dilə gətirir.

Bu səmimi etiraf kralı çox qəzəbləndirir, o, sevimli sonbeşik qızını lənətləyir, Kordeliyanı ata payından məhrum eləyir. Xudbin kral qızlarının rəğbətini, məhəbbətini, sədaqətini bütünlüklə, son damlasına qədər canına çəkmək istəyir, ona görə də böyük bacılar ona sevgilərini, itaətlərini ən isti, ən ülvi, ən ali kəlmələrlə ifadə eləyəndə Lirin korşalmış atalıq instinkti bundan çox məmnun qalır.

Səltənət iki paya bölünür, nankor Kordeliyaya cehiz verilmir. Bu səbəbdən ona elçi düşən iki nəfərdən biri - Burqundiya hersoqu öz namizədliyini geri götürür. Həm kral Lirin, həm də Burqund hersoqunun əməlindən sarsılan ikinci namizəd - nəcib Fransa kralı Kordeliyanı alıb öz ölkəsinə aparır. Kralın ədalətsiz qərarını açıq etirazla qarşıladığına görə onun ən yaxın adamlarından biri qraf Kent Lirin qəzəbinə gəlir. Sadiq əyan qraf Qloster isə saraydakı gərgin səhnəni, gələcək fəlakətlərin anonsunu səssiz narazılıqla yola verir. Qloster hələlik öz başına gələsi müsibətdən xəbərsizdir...

Pyesdə hadisələr təxminən miladdan min il əvvəl Britaniyada cərəyan eləyir. İsa Məsihin zühuruna hələ min il qalır, personajlar antik, ibtidai tanrılara tapınırlar. Əslində isə onların sitayiş elədiyi bir tanrı var, o da ana təbiətin özüdür.

***

Əsərdə ata-bala sədaqətinin sınağa çəkildiyi ikinci bir xətt, paralel süjet də var. Qraf Qlosterin iki oğlundan Edqar onun qanuni, Edmund isə qeyri-qanuni övladıdır. Qanunla Edmunda atasının sərvətindən pay düşmür, ona görə də o, sadəlövh, qəlbitəmiz böyük qardaşı Edqarı ləkələmək üçün plan cızır, qardaşının adından məktub yazıb atasını Edqarın ona tələ qurduğuna, qəsd hazırladığına inandırır. Bu biri yandan qardaşını da inandırır ki, atası ona çox qəzəblidir, bu qəzəb Edqara çox baha başa gələ bilər, buna görə də o buralardan qaçsa yaxşıdır.

Birinci pərdənin ikinci səhnəsində Edmundun monoloqu:

Sən mənim tanrımsan, gözəl təbiət,
Tabeyəm mən sənin qanunlarına, -

misralarıyla başlayır. Edmund onu çıxdaş eləyən, ixtiyarsız, sərvətsiz qoyan ictimai normalardan narazıdır, bic doğulduğuna, üstəlik, qardaşından bir neçə yaş kiçik olduğuna görə özü kimi adamların onu ata irsindən məhrum eləməsi Edmundu hiddətləndirir. Düşünür ki, heç kimdən əskik deyil, ana təbiət onu da başqalarını yaratdığı üsulla vücuda gətirib (yeri gəlmişkən, mütəxəssislərin hesablamasına görə, pyesdə "təbiət" sözü qırx dəfədən artıq təkrar olunur ki, bu da müəllifin fəlsəfi dünyagörüşüylə bağlı qənaətə gəlmək üçün çox tutarlı arqumentdir). Bəs eləysə nədən o, ata malından məhrum olunmalıdır? Məgər o bu dünyaya öz xahişiylə gəlib? Əgər bütün bu dəlillər nəzərə alınmırsa, Edmund öz başına özü çarə qılmalıdır, qardaşını gözdən salıb ata mülkünə sahib çıxmalıdır.

Onun planı baş tutur, Edqar qaçıb çöllərə düşməyə məcbur olur.

***

Əvvəldən razılaşdırıldığı kimi, Lir birinci ayı yüz nəfərlik məiyyətiylə Qonerilyanın evində qalır, növbəti ayı isə Reqananın sarayında keçirəcək. Qonerilya ilk günlərdən atasına xoş üz göstərmir, nökərlərə ərköyün qocanın nazıyla oynamamağı tapşırır. Lir hakimiyyətini faktiki təhvil versə də, kral ədalarından əl çəkməyib. Qızı ondan ətrafındakı yüz ədəbsiz müftəxorun yarısını ixtisara salmağı tələb eləyir. Qoca hökmdar hiddətlənsə də, gücü heç nəyə çatmır, Qonerilya hər addımda ona indi artıq özünün söz yiyəsi, hökm sahibi olduğunu xatırladır.

Kürəkəni hersoq Albani qocaya acısa da, arvadının sözünün üstündən söz deyə bilmir, Qonerilya ərini yumşaq davranmaqda qınayır, həlimliyini ona nöqsan tutur. Kralın qəzəbinə gəlib sürgünə göndərilmiş sadiq (həm də sabiq) qraf Kent təğyiri-libas olub yenidən onun qulluğunda durmağa başlayır. Lir ortancıl qızı Reqanaya məktub yazıb onu Kentlə ünvanına göndərir. Atasıyla eyni vaxtda Qonerilya da bacısına çaparla namə yollayır.

Lir özünü inandırır ki, ikinci qızı onunla mərhəmətli davranar, axı o, qızlarına təkcə həyat yox, həm də dövlət, səltənət verib. Qonerilyadan ayrılanda atası onu belə qarğıyır:

*Dinlə, ey təbiət, gözəl ilahə,*
*Dinlə bu qocanın qarğışlarını:*
*Əgər bu rəzili, bu həşəratı*
*Uşaq doğmaq üçün yaratmısansa,*
*Dəyiş qərarını, dəyiş hökmünü,*
*Qurut qısırlıqla ana bətnini,*
*Çürüt nəsilvermə məharətini.*
*Şərəfsiz cisminə şərəf olacaq*
*Bir övlad görməsin dünyada heç vaxt.*
*Hərgah doğacaqsa, görüm dərd doğsun,*
*İztirab əbədi dağlasın onu...*
*Onun əzab dolu, əziyyət dolu*
*Ana qayğısını, məhəbbətini*
*Rişxəndlə, nifrətlə qarşılasınlar.*
*O zaman hiss edər, o zaman bilər:*
*Əfi bir ilanın,*
*qorxunc gürzənin*
*Bədənə sancılmış*
*zəhər dişindən*
*Min dəfə*
*yamandır*
*nankor bir övlad!*



**F.Uğurlu**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# İncəsənət tarixində izi olan sənətkar

## Xalq artisti Ramiz Əzizbəylinin doğum günüdür

Sənət üçün doğulan insanlar az deyil. Onlar səhnəmizə, mədəniyyətimizə istedadı, bacarığı ilə birgə bəxş ediliblər. Belə sənətkarlarımızdan biri Xalq artisti, aktyor, kinorejissor Ramiz Əzizbəylidir. O, ailəsində qayğıkeş ata, mehriban baba, sədaqətli ailə başçısı, dostları üçün isə əsl dost, təvazökar insan olmaqla bərabər həm də xalqının istedadlı aktyoru idi. Yaratdığı hər obraz, çəkdiyi filmlər, səsləndirdiyi bədii qiraət nümunələri, yetişdirdiyi tələbələr, bir sözlə, sevə-sevə gördüyü bütün işlər-Azərbaycan xalqına verdiyi böyük töhfədir. Ramiz Əzizbəyli incəsənət və mədəniyyət tariximizdə öz izini qoyan sənətkarlardandır.

Bu gün Xalq artistinin anadan olmasından 76 il ötür. O, 20 iyul 1948-ci ildə Bakı şəhərində anadan olub. Mərhum aktyorun atası Təzə Pir məscidindəki ruhani məktəbinin əsasını qoyanlardan biri idi. Bəy nəslinin, böyük var-dövlətin yeganə varisi olan atası Hacı Ağa ömrünün son illərinə qədər 11 uşaqlı ailəsini "Yasin" oxumaqla dolandırıb.



### Həmin gün ulduzu parladı...

Ramiz Əzizbəylinin sənətə gəlişi 1957-ci ildən - 9 yaşından başlayıb. Elə həmin gün onun bəxt ulduzu böyük bir parıltı əmələ gətirdi və indiyə qədər də öz parıltısını itirməyib. Uşaq yaşlarında veriliş və televiziya tamaşalarında azyaşlı aktyor kimi çıxış edirdi. İlk dəfə AzTV-nin uşaq redaksiyasında daimi üzv kimi işləməyə başlayır. Hətta adına müvəqqəti əmək kitabçası da açılır. Əmək kitabçası müvəqqəti olsa da, redaksiyanın daimi üzvü olur. Azyaşlı olduğu üçün maaşı onun özünə verməyib, poçtla göndərirmişlər.

1959-cu ildə kinostudiyanın dublyaj redaksiyasına cəlb olunur. O vaxta qədər uşaq rollarını da böyüklər səsləndirirdilər. İlk dəfə uşaq obrazlarını səsləndirməyi ona həvalə edirlər.

### Ermənilər onu öldürmək istəyirdi...

Məktəbi bitirəndən sonra sənədlərini İncəsənət Universitetinə versə də, ixtisas fənnindən kəsilir. Bu məsələ onu çox sarsıdır. Könüllü əsgər getməyi qərara alır. Tiflisdə hərbi tibb məktəbini əla qiymətlərlə bitirəndən sonra təyinatla Ermənistanın Leninakan şəhərinə yollanır. Oranın tibbi-sanitar hissəsinin baş tibbi təlimatçısı işdən çıxdığı üçün onu bu vəzifəyə təyin edirlər. Ramiz Əzizbəyli səkkiz ay bu vəzifədə işləyir. Ermənilərin isə onu gözü götürmür. Hətta onu öldürmək istəyirlər.

### Bu filmdə əvvəlcə həyat yoldaşını çəkmişdi...

Növbəti cəhddə Ramiz Əzizbəyli M.A.Əliyev adına İncəsənət İnstitutunun mədəni-maarif fakültəsində qiyabi təhsil alır. Oranı bitirəndən sonra aktyor və rejissor kimi fəaliyyət göstərir. 1987-ci ildə "Pirverdinin xoruzu" qısametrajlı bədii filmi ilə özünü rejissor kimi təsdiqləyir.

Onun 1992-ci ildə çəkdiyi "Bəxt üzüyü" tammetrajlı bədii filmi isə müasir kino tariximizə yüksək bədii keyfiyyətli və ən yüksək kassa gəliri gətirən film kimi daxil olub. Filmdə Ramiz Əzizbəyli həyat yoldaşı Zümrüd xanımı çəksə də, sonradan o, çəkilən hissələri montaj edir. 2006-cı ildə çəkdiyi "Yalan" bədii filmi Qarabağ müharibəsi mövzusunun ən uğurlu ekran həllindən biri hesab oluna bilər.

Ramiz Əzizbəyli aktyor kimi "Dərviş Parisi partladır", "Şeytan göz qabağında", "Gümüşgöl əfsanəsi", "Kişiləri qoruyun", "Bağ mövsümü", "Bəxt üzüyü", "Bəyin oğurlanması" filmlərində rol alıb.

Mərhum sənətkar Azərbaycan Yazıçılar Birliyinin də üzvü idi. 2010-cu ildə "Cızma-qaralar"adlı bədii yaradıcılıq toplusu işıq üzü görüb. Xalq artistinin səhhətində uzun müddət problemlər olub. O, üç dəfə insult keçirib. Yüksək qan təzyiqi və şəkərdən əziyyət çəkib. Koronavirusa yoluxan sənətkar Zığ qəsəbəsində yerləşən koronavirus xəstələrinin müalicə aldığı modul tipli hospitala yerləşdirilib. Və orada olduğu müddətdə infarkt keçirib. Ramiz Əzizbəyli 9 iyun 2021-ci ildə uzun sürən xəstəlikdən sonra vəfat edib.

*Yeganə BAYRAMOVA*

# Zəka, məntiq və strategiya oyunu...

## Beynəlxalq Şahmat Günüdür!

Şahmat hər şeydən əvvəl mübarizədir. 64 xanalı taxta lövhə üzərində cansız fiqurlar arasında gedən səssiz-səmirsiz döyüş olan şahmat mübarizəsi insanda təhlil qabiliyyətini artırır, təxəyyülü gücləndirir, dözüm, inad, qətiyyət və dəmir iradə tərbiyə edir. Şahmatda siyasi kombinasiyalar belə mövcuddur.

### 100 il öncə...



Bu gün-iyulun 20-si dünyada Beynəlxalq Şahmat günü kimi qeyd olunur. Bayram 1966-cı ildən UNESCO-nun rəsmi bayram günləri təqviminə salınıb. Seçilən tarix heç də təsadüfi deyil. 1924-cü ilin məhz iyul ayının 20-də, Fransanın paytaxtı Paris şəhərində Ümumdünya Şahmat Federasiyası (FİDE) yardılıb. Artıq 100 ildir ənənəyə çevrilən bayram, Azərbaycan da daxil olmaqla dünyanın 178 ölkəsində qeyd olunur.

### Şahmat nə vaxt və necə yarandı?

Şahmat 1500 il bundan əvvəl Hindistanda meydana gəlib və ilk vaxtlar "çaturanq" adlanırdı. Bu oyunun qaydaları vaxt ötdükcə dəyişərək indiki halını alıb. Rəvayətə görə, hind müdriklərindən biri çaturanq oyununu qanlı müharibələrin qarşısını almaq üçün icad edib: Döyüş əməliyyatlarını adi taxta üzərində aparmaq və qələbəni insanın ən güclü silahı - ağılla qazanmaq mümkündürsə, onda nəyə görə qan tökülsün? Bu oyun hind şahzadəsini valeh edir. Şahzadə bu oyunu icad edən şəxsi mükafatlandırmaq məqsədi ilə saraya çağıraraq deyir: "Nə arzun varsa, de, yerinə yetirim". Həmin müdrik şəxs birinci xana üçün 1, ikinci xana üçün 2, üçüncü xana üçün 4, dördüncü xana üçün 256 və bu minvalla 64 xananın hər biri üçün həndəsi silsilə ilə artan qaydada buğda istəyir. İxtiraçının istəyinin bir kisə buğdadan çox olmayacağını düşünən şahzadə bu xırda ənamı verməkdən utanır və həmin şəxsə çoxlu qızıl-gümüş təklif edir. Müdrik şəxs bununla razılaşmır. Şahzadə xəzinədarı çağırır və xahişi yerinə yetirməyi əmr edir. Səhəri gün xəzinədar şahzadəyə ixtiraçının istədiyi buğdanın həddən çox olduğunu xəbər verir. Bunun 18 446 744 073 709 551 616, yəni 18 kvintilyon 446 kvadrilyon 744 trilyon 73 milyard 709 milyon 551 min 616 buğda dənəsi etdiyini deyir. Bu qədər buğdanı bir yerə yığmaq üçün hündürlüyü 4 metr, eni 10 metr, uzunluğu isə 30 milyon kilometr olan anbar gərəkdir. Şahzadə heyrətlənir və müdrik insanın ağlına bir daha heyran qalır.



### Azərbaycanda şahmatın inkişaf tarixi

Azərbaycanda şahmatın intellektual idman növü kimi tarixi qədim zamanlara gedib çıxır. Ölkəmizdə şahmat oyunu özünü təsdiq edənə qədər böyük inkişaf yolu keçib. Tədqiqatçıların fikrincə, şahmatın ilk forması olan çətrəngin əsrlər boyu təkmilləşdirilib şətrənc (şahmatın ikinci inkişaf mərhələsi) halına salınmasında, həmçinin şətrəncin inkişaf etdirilib müasir şahmata çevrilməsində böyük əmək sərf etmiş xalqlardan biri də azərbaycanlılar olub. Azərbaycan xalqının görkəmli elm, sənət adamları hələ qədim zamanlarda uzaq Hindistanda şahmatın yaradılması ilə maraqlanmış, onun başqa ölkələrə yayılmasını daim izləmiş və özləri də VI əsrin axırlarında həmin oyunla yaxından məşğul olmuşlar. Lakin o dövrün şahmat oyunçularından heç kəsin adı bizə məlum deyil.

### İlk azərbaycanlı şahmatçı...

Orta Asiya əlyazmasında adı çəkilən ilk Azərbaycan şahmatçısı Cəlaləddin Naxçıvanidir (IX əsr). Xaqani Şirvani (XII əsr), Nizami Gəncəvi (XII əsr), İmadəddin Nəsimi (XIV əsr), Məhəmməd Füzuli (XVI əsr) kimi dahi mütəfəkkirlərimiz öz əsərlərində şahmatı tərənnüm edib, onun haqqında mənalı, dərin fikirlər söyləyiblər. XI əsrdə yaşamış görkəmli mütəfəkkirimiz Qətran Təbrizinin əsərlərində o dövrün şahmatı haqqında maraqlı məlumatlar verilib.

Şahmat həqiqətən sirli bir aləm, möcüzələr dünyasıdır. Bu oyun, həmçinin çətin tapşırıqları həll etmək və yeni ideyalar yaratmaq imkanı verir. Təəccüblü deyil ki, altsqeymer xəstələrinə qarşı mübarizə metodu kimi şahmat oynamağı tövsiyə edirlər.

*Yeganə BAYRAMOVA*

## İdman

### Rəqib məlum oldu

Qadın futbolçular arasında Avropa çempionatının pley-off mərhələləri üçün püşkatma olub. AZƏRTAC xəbər verir ki, İsveçrənin Nyon şəhərində keçirilən püşkatma mərasimində Azərbaycan milli komandasının rəqibi müəyyənləşib. Millimiz birinci pley-off mərhələsində B Liqasının qrup mərhələsinin ən yüksək reytinqli yığmalarından biri olan Portuqaliya ilə qarşılaşacaq.




Azərbaycan seçməsi ilk oyununu oktyabrın 23-də öz ölkəsində, cavab görüşünü isə oktyabrın 29-da səfərdə keçirəcək. Azərbaycan - Portuqaliya cütünün qalibi ikinci pley-off mərhələsində Belarus - Çexiya cütünün qalibi ilə üz-üzə gələcək. Bu raundun oyunları noyabrın 27-də və dekabrın 3-də olacaq. Azərbaycan - Portuqaliya cütünün qalibi ilk görüşünü evdə keçirəcək.

### Baş məşqçi istefa Verdi



Danimarka millisinin baş məşqçisi Kasper Yulmann istefa verib. AZƏRTAC xəbər verir ki, bu barədə Danimarka Futbol Federasiyasının rəsmi saytı məlumat yayıb. Danimarka millisi Kasper Yulmannın rəhbərliyi ilə son Avropa çempionatında ev sahibi Almaniya seçməsinə 1/8 finalda uduzaraq mübarizəni dayandırmışdı. Qeyd edək ki, 52 yaşlı məşqçi 2020-ci ildən Danimarka yığmasına başçılıq edirdi.

### Morata "Milan"a keçdi

İtaliyanın "Milan" komandası İspaniya millisinin futbolçusu Alvaro Moratanı heyətinə cəlb edib. AZƏRTAC klubun rəsmi saytına istinadən xəbər verir ki, A Seriyası təmsilçisi 31 yaşlı hücumçu ilə 4 illik müqavilə imzalayıb.

Alvaro Morata son olaraq İspaniyanın "Atletiko" (Madrid) komandasında çıxış edib. O, daha əvvəl İtaliyada "Yuventus"un formasını geyinib.




### La Liqada ən yüksək maaş alanlar

İspaniya La Liqasının 2024/2025-ci illər mövsümündə ən yüksək maaş alacaq futbolçular məlum olub. AZƏRTAC xarici mətbuata istinadən xəbər verir ki, siyahıya "Barselona"nın niderlandlı yarımmüdafiəçisi Frenki de Yonq başçılıq edir. Onun yeni mövsümdə vergidənkənar illik qazancı 37,5 milyon avro olacaq.

İkinci sırada 33,3 milyon avro gəlirlə Kataloniya klubunun polşalı hücumçusu Robert Levandovski yer alıb. İlk "üçlüy"ü isə "Real Madrid"in fransalı yeni transferi Kilian Mbappe tamamlayıb - 31,3 milyon avro.

İlk "onluq"da "Real Madrid"in daha beş futbolçusu var. Bunlar David Alaba, Cud Bellingem, Vinisius Junior, Federiko Valverde və Tibo Kurtuadır.




### Latviyalı voleybolçu İtaliyada oynayacaq

Ötən mövsüm "Milli Aviasiya Akademiyası"nda çıxış edən latviyalı voleybolçu Vlada Pridatkonun yeni klubu məlum olub. AZƏRTAC xəbər verir ki, 21 yaşlı oyunçu İtaliyanın "Nuvoli Altafratte Padova" komandasına keçib. Onunla bir il müddətinə müqavilə imzalanıb. Vlada Pridatko Azərbaycanla yanaşı, Avstriyada da çıxış edib.





Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4338**
**Sifariş: 1598**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova